**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA**
**DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASI**

*Əlyazması hüququnda*

**RAMİLƏ BƏHLUL qızı DADAŞOVA**

# REGİONAL MÜNAQİŞƏLƏRİN HƏLLİ KONTEKSTİNDƏ BMT-DƏ İSLAHATLARIN ZƏRURİLİYİ (CƏNUBİ QAFQAZ TİMSALINDA)

**İxtisas: 5901.01 – “Beynəlxalq münasibətlər”**

**Siyasi elmlər üzrə elmlər doktoru elmi dərəcəsi**
**almaq üçün təqdim edilmiş dissertasiyanın**

**AVTOREFERATI**

**BAKI – 2018**

Dissertasiya işi AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunun Beynəlxalq münasibətlər və beynəlxalq hüquq şöbəsində yerinə yetirilmişdir.

**Rəsmi opponentlər:** Siyasi elmlər üzrə elmlər doktoru, professor
**Elman Xudam oğlu Nəsirov**

Tarix üzrə elmlər doktoru, professor
**Məmməd Böyükxan oğlu Fətəliyev**

Siyasi elmlər üzrə elmlər doktoru
**Adil Mirabdulla oğlu Mirabdullayev**

**Aparıcı təşkilat**: Bakı Slavyan Universitetinin
Beynəlxalq münasibətlər kafedrası

Dissertasiya işinin müdafiəsi "_____" ________ 2018-ci il tarixində saat ____da Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdindəki BD 02.101 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ 1001, Azərbaycan Respublikası, Bakı şəh., Lermontov küç., 74

Dissertasiya ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının kitabxanasında tanış olmaq olar.

Avtoreferat "_____" ________2018-ci il tarixində göndərilmişdir**.**

**BD 02.101 Dissertasiya Şurasının elmi katibi**
**Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent S.İ.Məmmədova**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Tədqiqat mövzusunun aktuallığı.** Müasir dövrdə dünyanın müxtəlif regionlarında baş verən dövlətlərarası və dövlətlərdaxili münaqişələrin lokal səviyyədə həll edilməməsi və nəticədə onların qlobal münaqişəyə çevrilməsi beynəlxalq təhlükəsizliyə daha çox mane olan problemlərdəndir. Soyuq müharibə dövründə ölkə daxili münaqişələr ABŞ və SSRİ-nin nəzarəti altında idi. BMT münaqişələrin tənzimlənməsinə adətən müdaxilə etmirdi. 90-cı illərdə meydana çıxan yeni qlobal problemlər, regional münaqişələrin sayının artması BMT-nin daha iri və mürəkkəb missiyalarını təşkil etməsinə gətirib çıxardı. Bu baxımdan tədqiq edilən mövzunu aşağıdakı amillər aktuallaşdırır. Birincisi, regional münaqişələri həll edərkən üçüncü tərəfin sülh prosesində iştirakı – vasitəçilik xüsusi əhəmiyyət kəsb edir. Vasitəçilik missiyasını yerinə yetirə bilən subyektlərdən BMT-nin fəaliyyəti daha səmərəli nəticələnə bilər. Lakin son zamanlar BMT-nin regional münaqişələrin nizama salınmasında fəaliyyətinin zəifliyi, qəbul etdiyi qətnamələrin yerinə yetirilməməsi bu təşkilatın saxlanıb-saxlanılmaması barədə müəyyən suallar doğurur. BMT-nin vasitəçiliyinin müsbət nəticə verməməsinin əsas səbəblərindən biri onun münaqişə tərəflərini düzgün müəyyənləşdirməməsidir, başqa sözlə, BMT təcavüzkar dövləti və özünümüdafiə hüququ olan dövləti öz qətnamələrində dəqiq göstərmir. BMT-nin fəaliyyətinin hansı halda müsbət nəticə verə biləcəyi barədə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev BMT Baş Məclisinin 1994-cü ildə keçirilən 49-cu sessiyasında çıxışında demişdir: “Regional münaqişələrin aradan qaldırılmasında toplanmış təcrübə göstərir ki, qətnamələrin yerinə yetirilməsi sahəsində səylər yalnız BMT Nizamnaməsi ilə nəzərdə tutulmuş qətiyyətli tədbirlər ilə möhkəmləndikdə müvəffəqiyyət gətirir”[1]. Heydər Əliyev öz çıxışında Təhlükəsizlik Şurasının qətnamələri yerinə yetirməkdə fəaliyyətinin gücləndirilməsinin, Şuranın tərkibinin genişləndirilməsinin, Baş Məclisin rolunun artırılmasının, Baş katibin öz səlahiyyətlərindən səmərəli istifadə etməsinin, üzv dövlətlər arasında sıx qarşılıqlı fəaliyyətin olmasının zəruriliyini qeyd etmişdi[2]. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin bu fikirlərini BMT Baş Məclisinin 2004-cü il sentyabrın 24-də keçirilən 59-cu sessiyasında Azərbaycan

---

[1]Əliyev H.Ə.Müstəqilliyimiz əbədidir: 46 kitabda, 2-ci kitab, Bakı: Azərnəşr, 1997, s.310.
[2] Azərbaycan BMT ailəsində. Bakı, 2000, s.11.

Respublikasının Prezidenti İlham Əliyev inkişaf etdirərək Təhlükəsizlik Şurasının problemləri, xüsusilə də silahlı münaqişələrə aid problemləri həll etməyə qadir olmamasının etiraf edilməsinin, BMT Təhlükəsizlik Şurası qətnamələrinin həyata keçirilməsinin işlək mexanizminin yaradılmasının zəruriliyini vurğulamışdır[3]. Bu baxımdan BMT-nin regional münaqişələrin nizama salınmasında potensial imkanlarının araşdırılması və təşkilatın fəaliyyətinin səmərəliliyini artırmaq üçün hansı islahatların aparılması və bu islahatların nə dərəcədə əhəmiyyətli olacağını təhlil etmək aktual problemlərdən biridir.

İkincisi, BMT-nin universallığı, beynəlxalq hüquq normalarını əsas götürməklə münaqişə tərəflərinə münasibətdə kompromisi tətbiq etməsi, fəaliyyətinin qloballığı, sülhə məcburetmə vasitələrindən istifadə etmək hüquqlarına malik olması əvəzolunmaz beynəlxalq təşkilat kimi onun saxlanılmasını şərtləndirir. Böyüklüyü və kiçikliyindən asılı olmayaraq BMT-də təmsil olunan hər bir dövlətin səsvermə hüququ vardır, onlar bütün dünya qarşısında öz mövqelərini söyləyə bilirlər. Lakin kiçik dövlətlərin hüquqları veto hüquqlu dövlətlərin maraqlarına uyğun olaraq əksər halda məhdudlaşdırılır. Veto hüquqlu dövlətlərin BMT-nin əsas orqanlarının hər birində iştirak edərək öz milli maraqlarına müvafiq olaraq qərarlara təsir etməsinin qarşısını almaq üçün BMT-də hansı islahatların aparılmasını araşdırmaq, nəticələr əldə etmək aktual məsələlərdəndir.

Üçüncüsü, məlum olduğu kimi, qloballaşmanın sürətləndiyi bir dövrdə dünya dövlətlərinin qarşılıqlı asılılığı güclənir. Dünya birliyini narahat edən qlobal problemlərin sayının artması, mürəkkəbləşməsi, bu problemlərlə təkbaşına mübarizə etməyin qeyri-mümkünlüyü ilə əlaqədar olaraq, BMT yaradılandan müasir dövrə qədər onun mexanizmində islahatların aparılması zəruriliyi bugünkü qədər heç vaxt aktuallıq kəsb etməmişdir.

Dördüncüsü, müasir beynəlxalq münasibətlərdəki şərait BMT yaradılan dövrdəki şəraitdən bir çox xüsusiyyətləri ilə fərqlənir. Ona görə də tarixi-siyasi şəraitin dəyişməsi ilə əlaqədar olaraq BMT-nin fəaliyyətinin gücləndirilməsi üçün islahatlar keçirilməsi barədə təklifləri təhlil edərək nəticə çıxarmaq aktual problemdir. BMT yaradılarkən başlıca məqsəd Almaniya və Yaponiyanın nasist, militarist dövlətlər kimi dirçəlməsinə yol verməmək, beynəlxalq sülh və təhlükəsizliyi qorumaq idi. Təşkilatda siyasi, iqtisadi, sosial əməkdaşlıq yolu ilə bütün üzvlərin bərabərliyi prinsipi

---

[3] Əliyev İ.H. İnkişaf – məqsədimizdir:50 kitabda, 6-cı kitab, Bakı:Azərnəşr, 2011, s.133.

formalaşdırılmaqla yanaşı, bu və ya digər dövlət qruplarının hökmranlığına yol verilməməsi nəzərdə tutulmuşdu. Zamanında militarist dövlətlər olan Almaniya və Yaponiya indi Təhlükəsizlik Şurasının veto hüquqlu üzvləri olmaq üçün iddia edirlər.

Beşincisi, beynəlxalq təhlükəsizlik sisteminin bir hegemon dövlət tərəfindən birtərəfli qaydada deyil, dünya dövlətlərinin birgə səyləri ilə təkmilləşdirilməsi hazırda aktuallıq kəsb edir. Bu baxımdan da BMT-də islahatların aparılması aktual əhəmiyyət kəsb edir.

Altıncısı, beynəlxalq münasibətləri tənzimləmək üçün ilk növbədə beynəlxalq hüququn qüvvədə olması vacibliyinin vurğulanması mövzunun aktuallığını göstərir. Beynəlxalq münasibətlərin sabit inkişafı üçün beynəlxalq hüquq normalarına dövlətləri riayət etməyə məcbur etmək, günahkar tərəfə sanksiyaları tətbiq etmək və s. baxımdan BMT sistemi münaqişələrin beynəlxalq hüquq normalarına müvafiq nizama salınmasına kömək edə bilən mexanizmə malikdir.

Yeddincisi, qloballaşma prosesində beynəlxalq təhlükəsizliyi təhdid edən problemlərin qarşısını almaq və tarazlı beynəlxalq münasibətlər sistemini inkişaf etdirmək üçün BMT-nin əsas orqanlarının – Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və Sosial Şura, Katiblik, Beynəlxalq Məhkəmə və ixtisaslaşmış qurumların fəaliyyətinin təkmilləşdirilməsi və gücləndirilməsi, səmərəli islahatların keçirilməsi məsələlərinin araşdırılması mövzunun öyrənilməsini aktuallaşdırır.

Səkkizincisi, regional münaqişələrin nizama salınması üçün BMT-nin potensial imkanlarının, bu zaman Təhlükəsizlik Şurasının daimi üzvləri arasındakı ziddiyyətlərin, veto hüququnun qarşıya çıxardığı problemlərin, BMT-nin fəaliyyətinin gücləndirilməsi barədə siyasi xadimlərin təkliflərinin, Təhlükəsizlik Şurasının qətnamələrinin, üzv dövlətlərin mövqelərinin, regional və subregional təşkilatlarla əməkdaşlığın müsbət və mənfi tərəflərinin araşdırılması aktuallıq kəsb edir.

Doqquzuncusu, sülh və təhlükəsizlik məsələlərinə dair dünya dövlətləri arasında aparılan fikir mübadiləsi, siyasi, iqtisadi, sosial, humanitar xarakterli beynəlxalq problemlər barədə tövsiyə verən, qətnamələr qəbul edən universal təşkilat kimi BMT-nin Cənubi Qafqaz ölkələrində regional münaqişələrin nizama salınmasında fəaliyyətini tədqiq etmək, elmi əsaslandırılmış tövsiyələr vermək aktual məsələlərdən biridir. Hazırda Azərbaycan Respublikasının xarici siyasətinin prioritetlərindən biri və ən vacibi ölkənin Ermənistanın hərbi təcavüzü nəticəsində pozulmuş ərazi bütövlüyünün diplomatik-siyasi vasitələrlə bərpa edilməsidir. Bu nöqteyi-

nəzərdən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasında BMT Təhlükəsizlik Şurasının, Baş katibin və ATƏT-in əməkdaşlığı problemlərinin, BMT Təhlükəsizlik Şurasının Ermənistanı təcavüzkar dövlət kimi müəyyənləşdirməsinə əsas verən faktların araşdırılması, regional münaqişələrin nizama salınmasında BMT-də zəruri islahatların aparılması və münaqişənin həlli yollarına dair tövsiyələr verilməsi mövzunun aktuallığını şərtləndirir.

Onuncusu, Cənubi Qafqazda sabitliyin yaranması, siyasi, iqtisadi və digər sahələrdə olan əməkdaşlığın inkişaf etdirilməsi üçün Dağlıq Qarabağ münaqişəsi ilə yanaşı, Gürcüstanda olan münaqişələrin nizama salınması vacibdir. Bu baxımdan Gürcüstanda olan münaqişələrin xüsusiyyətlərini, Cənubi Osetiya və Abxaziya problemlərinin səbəblərini, nəticələrini araşdırmaq, bu münaqişələrin nizama salınmasında BMT-nin fəaliyyətini tədqiq etmək, təşkilatda aparılması zəruri olan islahatlar fonunda problemlərin həlli yolları barədə təkliflər vermək aktual məsələlərdən biridir.

Nəhayət, problemin Azərbaycan siyasi elmində indiyədək xüsusi tədqiqat obyekti olmaması onun araşdırılmasını aktual edir.

**Problemin işlənmə dərəcəsi.** Dissertasiya işi yazılarkən bir sıra ədəbiyyatdan istifadə edilmişdir.Məlum olduğu kimi,BMT-nin regional münaqişələrin həlli ilə bağlı fəaliyyət mexanizmi barədə bəzi əsərlər yazılmışdır. Problemə bu və ya digər dərəcədə həsr olunmuş ədəbiyyatı yazıldığı ictimai-siyasi şəraitə görə iki qrupa bölmək olar: 1. "Soyuq müharibə" dövründə yazılan əsərlər. 2.SSRİ-nin süqutundan sonra yazılan əsərlər.

Azərbaycanda bu istiqamətdə əsərlərin yazılmasına XX əsrin 90-cı illərindən başlayaraq maraq göstərilmişdir. R.Mehdiyev, Ə.Həsənov, M.Qasımlı, H.Rəcəbli, A. Abbasbəyli, E.Əhmədov, İ.Məmmədov, T.Musayev, E.Mirbəşiroğlu, E.Bağırov, F.Abbaszadə, V.İbayev, R.Sevdimalıyev, R.Qarayev, F.İsmayılov və R.Dadaşovanın əsərlərində problemin bu və ya digər tərəflərinə toxunulmuşdur.

R.Mehdiyevin əsərlərində yeni dünya nizamının yaranması, XX əsrin axırları – XXI əsrin əvvəllərində baş vermiş siyasi proseslərin cəmiyyətə təsiri, postsovet məkanında gedən demokratikləşmə, qloballaşmanın istiqamətləri, qloballaşma prosesinin, qərbləşmənin və modernləşmənin Azərbaycana təsiri məsələləri təhlil olunur.[4]

---

[4] Mehdiyev R.Ə. Yeni dünya nizamı və milli ideya. Bakı, "Şərq-Qərb", 2016; Azərbaycan: Qloballaşma dövrünün tələbləri. Bakı, "XXI - Yeni Nəşrlər Evi", 2005; XXI əsrdə milli

Ə.Həsənov kitablarında beynəlxalq münasibətlər sisteminin formalaşması və inkişaf mərhələlərini, müasir dünya siyasətinin xüsusiyyətlərini, istiqamətlərini, əsas aktorlarını, beynəlxalq və regional məsələləri, Azərbaycanın xarici siyasətini, BMT-nin strukturunu, məqsəd və vəzifələrini, fəaliyyətinin əsas istiqamətlərini, Azərbaycanın BMT və ATƏT ilə əməkdaşlığı məsələlərini, həmçinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində bu təşkilatların fəaliyyətini təhlil edir[5].

M.Qasımlı araşdırmalarında Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərini, o cümlədən beynəlxalq təşkilatlarla, xüsusən BMT ilə əməkdaşlığını tədqiq edir[6].

H.Rəcəblinin əsərlərində BMT-nin ixtisaslaşmış qurumları haqqında geniş məlumat verilir və Azərbaycanın bu qurumlarla əməkdaşlığı təhlil edilir[7].

A.Abbasbəyli kitablarında müasir təhlükələrin ümumdünya xarakterli olduğunu qeyd edərək, böyük dövlətlərin kiçik dövlətlər üzərində hökmranlığı olmadan, kiçik və böyük dövlətlərin kompleks yanaşması əsasında qlobal problemlərin həll edilməsi üçün BMT-nin saxlanılması zəruriliyini göstərir. BMT-də islahatlar və Təhlükəsizlik Şurasının rolunun artırılması barədə Rusiyanın mövqeyini göstərir[8].

---

dövlətçilik. Bakı: "XXI" - Yeni Nəşrlər Evi, 2003; İkili standartların dünya nizamı və müasir Azərbaycan. Bakı, Şərq-Qərb Nəşriyyat Evi, 2015.

[5]Həsənov Ə.M. Geosiyasət: Dərslik. Bakı:Aypara-3, 2010; Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti: Dərslik, Bakı: Azərbaycan, 2005; Azərbaycan və ATƏT: Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ problemi ümumavropa təhlükəsizliyi fonunda. Bakı:Azərbaycan, 1997; Azərbaycanın xarici siyasəti. Avropa dövlətləri və ABŞ (1991-1996). Bakı: Azərbaycan, 1998; Azərbaycanın xarici siyasəti. Avropa dövlətləri və ABŞ(1991-1996): tarix elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı: 2000.

[6] Qasımlı M.C. Azərbaycanın xarici siyasəti (Konsepsiya məsələsi). Bakı: Mütərcim, 1997; Azərbaycan Respublikasının xarici siyasəti(1991-2003): 2 hissədə. 1 hissə. Bakı: Mütərcim, 2015; Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995-ci illər). Bakı: Gənclik, 1996.

[7] Rəcəbli H.M. BMT-nin ixtisaslaşmış qurumları. Bakı: Azərbaycan, 2003; BMT-nin ixtisaslaşmış qurumları ilə Azərbaycan arasında əlaqələr: s. e. n. alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 1997.

[8] Abbasbəyli A.N. Beynəlxalq münasibətlərin proqnozlaşdırılmasının nəzəri problemləri. Bakı: Şirvannəşr, 2006; Внешняя политика Российской Федерации в XXI веке. Баку: Элм, 2005.

E.Əhmədovun tədqiqat işlərində 1992-1997-ci illərdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasında BMT, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı, xüsusən də ATƏT-in fəaliyyəti təhlil edilir, beynəlxalq təşkilatların fəaliyyətində ziddiyyətlər, buraxılan nöqsanlar göstərilir, beynəlxalq təşkilatların Ermənistan, Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair qəbul etdiyi sənədlər araşdırılır[9].

İ.Məmmədov və T.Musayevin birgə yazdıqları əsərdə Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsinə BMT-nin münasibətindən, Ermənistanın beynəlxalq hüquq məsuliyyətindən bəhs edilir[10].

E.Mirbəşiroğlunun araşdırmasında münaqişə subyektlərinin 3-cü tərəfə müraciəti qaydaları, 3-cü tərəfin istifadə etdiyi metodlar göstərilmiş, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi prosesində 3-cü tərəfin iştirakının əsas məqamları nəzəriyyə əsasında təhlil edilmişdir. Müəllif qeyd edir ki, münaqişələrin həll edilməsində 3-cü tərəf bitərəf mövqe tutmalı, münaqişələrin həlli sahəsində böyük təcrübəyə, kifayət qədər nüfuza malik olmalı, münaqişələrin həlli üçün bütün vasitələrdən istifadə etməlidir[11].

E.Bağırovun tədqiqat işində BMT-nin fəaliyyətində qaçqın problemindən, BMT-nin Qaçqınların işi üzrə Ali Komissarlığının fəaliyyətindən, qaçqın və məcburi köçkünlərə edilən humanitar yardımlardan bəhs edilir[12].

F.Abbaszadənin araşdırmasında Təhlükəsizlik Şurasının, Baş Məclisin beynəlxalq sülh və təhlükəsizliyin müdafiə edilməsində rolu, beynəlxalq münaqişələrin həll edilməsi və qarşısının alınmasında BMT-nin sülh və məcburi tədbirləri, sanksiyaların mahiyyəti, beynəlxalq münaqişələrin, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasında BMT və regional təşkilatların rolu tədqiq edilmişdir[13].

---

[9] Əhmədov E.İ. Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar. Bakı: Turan, 1998; Böyük dövlətlərin Qarabağ münaqişəsinə dair siyasəti: siyasi elmlər namizədi adı almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 2001; Ermənistanın Azərbavcana təcavüzü: təhlili xronika (1987-2011). Ensiklopedik nəşr. Bakı, 2012.

[10] Маммадов И.М., Мусаев Т.Ф. Армяно-азербайджанский конфликт:история, право, посредничество. Баку, 2008.

[11] Mirbəşir oğlu E. Siyasi münaqişələrin həllində 3-cü tərəfin iştirakı: s. e. n. alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 2005.

[12] Bağırov E.Q. BMT-nin fəaliyyətində qaçqın problemi: tarix elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bakı, 2005.

[13] Аббасзаде Ф.Э. Функционирование механизма ООН по предотвращению, управлению и разрешению споров и конфликтов: дис. канд. полит.наук. Баку, 2001.

V.İbayevin kitabında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi zamanı insan hüquqlarının pozulması, baş vermiş beynəlxalq cinayətlərlə əlaqədar ədalət mühakiməsinin həyata keçirilməsi məqsədi ilə beynəlxalq tribunalın yaradılması hüquqi cəhətdən əsaslandırılmış, beynəlxalq hüququn tələbinə uyğun olaraq beynəlxalq cinayətlər törətmiş şəxslərin məsuliyyətə cəlb edilməsi vacibliyi qeyd edilmişdir[14].

R.Sevdimalıyev məqaləsində Dağlıq Qarabağ münaqişəsinin timsalında Qafqazda olan etnik münaqişələrdən, insan hüquqlarının pozulması hallarına qarşı mübarizə məsələlərindən bəhs edir[15]

R. Qarayevin əsərində beynəlxalq hüququn əsas prinsiplərindən olan ərazi bütövlüyü və xalqların öz müqəddəratını təyin etməsi prinsiplərinin təhlili, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində beynəlxalq hüquq normalarının, o cümlədən ərazi bütövlüyü kimi beynəlxalq hüquq prinsipinin pozulması məsələsi əksini tapmışdır[16].

F.İsmayılovun tədqiqat işində regional münaqişələrin həllinə dair Amerika politoloqlarının konsepsiyaları təhlil edilmiş, ABŞ-ın Dağlıq Qarabağ probleminin həllində mövqeyi, Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycan-ABŞ münasibətlərində baş verən dəyişikliklər, BMT və ATƏT çərçivəsində çoxtərəfli əlaqələrin Dağlıq Qarabağ münaqişəsinin nizama salınması məsələsinə təsiri araşdırılmışdır[17].

Dissertasiya müəllifi R.Dadaşovanın əsərlərində müasir dövrdə olan problemlərdən güc siyasətinin tətbiqi, hərbi müdaxilə, beynəlxalq münaqişələr, beynəlxalq terrorizm kimi qlobal problemlər, ABŞ-ın Avrasiya siyasətinin, natosentrizm siyasətinin mahiyyəti, BMT ilə əməkdaşlıq edən regional və ya subregional təşkilatlarda hakim mövqe tutan dövlətin, məsələn ATƏT-də, MDB-də Rusiyanın və ya NATO-da ABŞ-ın geopolitik

---

[14] İbayev V.Ə. Ermənistan-Azərbaycan-Dağlıq Qarabağ münaqişəsi və insan hüquqları: hüquq elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 2003.

[15] Севдималиев Р.М. Этнические конфликты и права человека на Кавказе (на примере Нагорно-Карабахского конфликта) // Центральная Азия и Кавказ, 2002, № 1, с.104-114.

[16]Караев Р.М.Соотнощение принципов территориальной целостности и самоопределения народов в теории и практике международного права. Баку:Текнур, 2009.

[17] İsmayılov F.C. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və ABŞ-ın mövqeyi: tarix elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 2005.

maraqları araşdırılır, BMT-nin əsas və ixtisaslaşmış qurumlarının fəaliyyətinin gücləndirilməsi, islahatların keçirilməsi zəminində beynəlxalq münasibətlərin müasir problemlərinin həlli yolları, BMT-də islahatların əhəmiyyəti göstərilir[18].

Mövcud Azərbaycan ədəbiyyatının təhlili göstərir ki, problem ölkə siyasətşünaslığında xüsusi tədqiqat obyekti olmamışdır və araşdırılması aktualdır.

BMT-də islahatların aparılması zəruriliyi məsələsinə Türkiyə tədqiqatçıları da əsərlər həsr etmişlər. Bu, Naim Demirel, Nejat Doğan, Cenap Çakmak, Halil Kürşad Aslan, Feyzullah Yılmaz, Ozan Örmeci və Bahar Bakirin əsərlərində əksini tapmışdır.

Naim Demirel əsərində BMT Nizamnaməsinin 24-cü maddəsinin 1-ci bəndində göstərilən sülh və təhlükəsizlik məsələlərini təhlil edir, bu maddənin Təhlükəsizlik Şurasına beynəlxalq sülh və təhlükəsizliyin təmin edilməsi və qorunmasında səlahiyyət verdiyini, Təhlükəsizlik Şurasının quruluşunu və işlək mexanizmini izah edir[19].

Nejat Doğan, Cenap Çakmakvə Halil Kürşad Aslan birgə yazdıqları kitabda göstərirlər ki, BMT millətlərin sülh uğrunda, iqtisadi-sosial problemlərə qarşı mübarizədə gerçək mənada birləşmiş olduğu bir dünya birliyidir. Lakin sözün əsas mənasında birləşmiş bir dünya birliyinin reallaşdırılması hələ də gözlənilir. Onlar BMT-nin təməl orqanlarının fəaliyyətini,

---

[18] Dadaşova R.B. Beynəlxalq münasibətlərin müasir problemləri və BMT. Bakı:Təknur 2011; Diplomatik portretlər. Bakı: Avropa, 2015; Analysis of the reforms process in UN from prism of the political personalities // International Journal Of Current Life Sciences – Vol.4, Issue,10, pp.8165-8171, October, 2014, http://www.bretj.com; Geopolitik confrontation between the members with veto right of the Security Council and the problems of putting in order of the regional conflicts // Національний педагогічний університет імені М.П.Драгоманова, Гілея Науковый вісник, Випуск 77(№10), Киів 2013, c.318-320; Importance of the UN in the regulation of the international relations and the offers about reforms // Національний педагогічний університет імені М.П.Драгоманова, Гілея Науковый вісник, Випуск 79(№12), Киів 2013, c.316-318; Perspectives of the reforms in the General Assembly of UN / Львівська Фундація Суспільних Наук.Чинники Розвитку Суспільних Наук у XXI Століттi. Міжнародна науково-практична конференція, Львів, 28-29 жовтня 2016 р, c.88-92. və s.

[19] Naim Demirel. BM Güvenlik Konseyi ve Uluslararası Barışın Korunması İstanbul:Yayınevi: Derin Yayınları, 2015.

BMT-dəki islahat barədə mübahisələri, Almaniya və Çin kimi dövlətlərin BMT-yə yanaşmalarını, Türkiyə və BMT mövzusunu təhlil edirlər[20].

Feyzullah Yılmaz araşdırmasında göstərir ki, beynəlxalq münasibətlərdə sistemli bir dəyişiklik olmadan BMT orqanlarında islahatlar aparmaq çox çətindir. BMT-də olan müzakirələr Təhlükəsizlik Şurasında islahatlar aparılmasından çox uzaqdır, soyuq müharibə dövründən qalan dəyişikliklərdən imtina edilməzsə, BMT-də dəyişikliklər baş tutmayacaqdır. BMT Təhlükəsizlik Şurasında islahatlara dair durğunluq davam edəcək, lakin bəzi kiçik dəyişikliklər ola bilər. Çünki bugünkü sistemin aktorları beynəlxalq münasibətlər sistemində dəyişikliklər olmadan islahatlar aparmaq istəməzlər[21].

Ozan Örmeci məqaləsində Təhlükəsizlik Şurasının daimi və müvəqqəti üzvlərinin regionlara görə necə təmsil olunduğunu araşdırmışdır. Onun fikrincə, BMT Təhlükəsizlik Şurası tamamilə Soyuq müharibə nizamına görə qurulmuşdur. BMT-də islahatlar aparmaq üçün regional qrupların yeni siyasi tarazlıq və geosiyasi inkişaflara görə formalaşdırılması, hər qitədən ən azı bir daimi üzvün saxlanılması və yeni güclərin Təhlükəsizlik Şurasında iştirak etməsi nəzərə alınmalıdır[22].

Bahar Bakir isə məqaləsində yazır ki,BMT üzv dövlətlərin suverenlik hüquqlarının bərabər olduğu prinsiplərə söykənən bir təşkilat olsa da, praktikada şərait belə deyildir. Təhlükəsizlik Şurasında yalnız 5 daimi üzvə verilən veto hüququ, Təhlükəsizlik Şurasının üzvləri arasında yaşanan bölünmələr və veto hüququndan qaynaqlanan səlahiyyət problemləri təşkilatda islahatlar məsələsini aktual edir. Birləşmiş Millətlər Təşkilatında ya islahatlar olmalıdır, ya da təşkilat qlobal siyasəti istiqamətləndirmədə rolunu itirəcəkdir. Veto hüququ barədə dəyişiklik edilmədən Təhlükəsizlik

---

[20] Nejat Doğan, Cenap Çakmak, Halil Kürşad Aslan. Birleşmiş Milletlər - BMT Sistemi və Reformu. İstanbul, Yayınevi : Siyasal Kitabevi, 2014.

[21]Yılmaz Feyzullah Birleşmiş Milletler Güvenlik Konseyi Reformu: Eleştirel Bir Yaklaşım.0 8.11. 2007. Değerlendirme: Lütfi Zafer Soylu http://www.bisav.org.tr/enB/Bulten/17/346/birlesmis_milletler_guvenlik_konseyi_reformu_elestirel_bir_yaklasim

[22] Ozan Örmeci Birleşmiş Milletler Güvenlik Konseyi ve Bölgesel Gruplar 17 Ekim 2014 http://ydemokrat.blogspot.com/2014/10/birlesmis-milletler-guvenlik-konseyi-ve.html

Şurasında üzvlərin sayı artırılarsa, onsuz da çox ağır olan qərar qəbuletmə mexanizmi daha da ağırlaşacaqdır[23].

Rusiya tədqiqatçıları istər sovet dövründə, istərsə də sovet sistemi devrildikdən sonra öz əsərlərində BMT-nin fəaliyyətinin araşdırılmasına geniş yer ayırmışlar. Sovet dövründə V.N. Fedorov, Q.K.Efimov, Q.İ.Morozov, S.B.Krılov, N.B.Krılov, V.A.Vasilenko, E.S.Aleksandrova, D.İ.Feldman, M.N.Yakovski, E.A.Tuşmin, A.A.Piradov, İ.P.Blişenko, A.M.Ladıjenski və V.D.Kudryavtsevin əsərlərində BMT-nin yaradılması tarixi, onun strukturu, XX əsrin 90-cı illərinə qədər olan regional münaqişələr və onların BMT-də həll edilməsi problemləri tədqiq edilmişdir[24].

Müasir dövrdə isə Rusiya tədqiqatçılarından V.F.Zayomski, T.N.Neşatayeva, P.A.Sıqankov, N.A.Uşakov, V.M.Kulaqin, İ.P.Blişenko və M.M.Solnseva, A.V.Torkunov, A.S.Protopopov, V.M.Kozmenko,

---

[23]Bahar Bakir Birleşmiş Milletler Örgütü'nde Sancılı Reform Süreci 21.07.2005.http://www.tasam.org/tr-TR/Icerik/285/birlesmis_milletler_orgutunde_sancili_reform_sureci

[24] Федоров В.Н., Ефимов Г.К. ООН и поддержание международного мира. М.: Знание, 1969; ООН и проблемы войны и мира. М.: Международные отношения, 1988; Совет Безопасности ООН. М.: Международные отнощения, 1965; Морозов Г.И. Организация Объединенных Наций. Основные международно-правовые аспекты структуры и деятельность. М.: ИМО, 1962; Организация Объединенных Наций. К 15 летию Устава ООН. М.: ИМО, 1960; Международные организации. Некоторые вопросы теории. М.: Мысль, 1974; Актуальные проблемы деятельности международных организации. М.: Международные отношения, 1982; Крылов С.Б. Принципы участия государств в системе ООН. М.: Международные отношения, 1986; Крылов Н.Б. Роль международных организаций системы ООН в международном правотворчестве:диссертация доктора юридических наук. Москва, 1989; Василенко В.А., Международно-правовые санкции. Киев: Вища школа, 1982; Александрова Э.С. ООН: объединенные действия по поддержанию мира. М.: Международные отнощения,1978; Фелдман Д.И., Яковский М.Н. Генеральная Ассамблея ООН и вопросы развития международного права. Казан: Издательство Казан Университета, 1968; Яковский М.В. Генеральная Ассамблея ООН. Международно-правовые вопросы / Отв.ред. Лукашук И.И. Кишинев: Штильница, 1971; Генеральная Ассамблея ООН и прогрессивное развитие международного право: Автореферат диссертация доктора юридических наук. Киев, 1970; Тушмин Е.А. Мирное разрешение международных споров (Международные вопросы). М.: Международные отношения, 1974; Пирадов А.А. Региональные конфликты: урегулировании в ООН. М.: Международные отнощения, 1990; Блищенко И.П., Ладыженский А.М. Мирные средства разрешения споров между государствами. М.: Международные отношения, 1962; Блищенко И.П., Кудрявцев В.Д. Агрессия Израиля и международное право. М.: Международные отношения, 1970.

N.S.Elmanova, S.A.Lantsova, V.A.Açkasova, M.M.Lebedeva, N.A.Nartov, A.F.Panarin və E.A Şibayeva əsərlərində beynəlxalq münasibətləri, eləcə də beynəlxalq münaqişələri dinc yollarla nizamasalmada, beynəlxalq əməkdaşlığı inkişaf etdirməkdə BMT-nin rolunu tədqiq edir, beynəlxalq sülh və təhlükəsizliyin müdafiəsində əhəmiyyətini nəzərə alaraq BMT-də islahatlar aparılması zəruriliyi fikrini irəli sürürlər[25].

Rusiya Xarici İşlər Nazirliyinin Beynəlxalq münasibətlər departamentinin direktor müavini V.F.Zayomskinin əsərində BMT-nin sülhməramlı fəaliyyətinin əsas aspektləri təhlil edilmişdir. Müəllif BMT-nin sülhməramlı fəaliyyətinin hüquqi əsaslarına, üzv dövlətlər və Katiblik arasında qarşılıqlı münasibətlərə xüsusi diqqət ayırmış, Təhlükəsizlik Şurasının qətnamələrinin beynəlxalq hüquqi sənəd olduğunu qeyd etmiş, regional təşkilatların BMT Nizamnaməsinə müvafiq olaraq sülhməramlı əməliyyatlarda iştirakının zəruriliyini göstərmiş, Rusiyanın BMT-nin sülhməramlı əməliyyatlarında iştirakından geniş bəhs etmiş, BMT-də islahatlar barədə Rusiyanın təkliflərini təhlil etmişdir[26].

---

[25] Нешатаева Т.Н. Международные организации и право. Новые тенденции в международно-правовом регулировании. М.: Дело, 1999; Цыганков П.А. Международные отнощения. М.: Новая школа, 1996; Международное отнощения: теория, конфликты, организации: Учебник пособие / Под ред.проф. Цыганков П.А. М.: Альфа, 2004; Ушаков Н.А. Правовое регулирование использования силы в международных отношениях. М.: Институт государства и права РАН, 1997; Кулагин В.М. Международная безопасность: Учебник пособие для вузов. М.: Аспект Пресс, 2006; Блищенко И.П., Солнцева М.М. Мировая политика и международного право. М.: Международные отношения, 1991; Современные международные отношения: Учебник / Под ред. А.В.Торкунова, М.: Российская политическая энциклопедия, 2000; Современные международные отношения и мировая политика: Учебник / Отв. Ред. А.В.Торкунов. М.: Просвещение, 2005; Протопопов А.С., Козьменко В.М., Елманова Н.С. История международных отношений и внешней политики России. М.: Аспект, 2001; Мировая политика и международные отнощения: Учебное пособие / под редакцией С.А.Ланцова, В.А.Ачкасова. М.: Питер Пресс, 2008; Лебедева М.М. Мировая политика: Учебник для вузов. М.: Аспект Пресс, 2007; Панарин А.Ф. Стратегическая нестабилность в XXI веке. М.: Алгоритм, 2003; Шибаева Е.А. Право международных организаций. Вопросы теории. М.: Международные отношения, 1986.

[26] Заемский В.Ф. ООН и миротворчество. Курс лекций. М.: Международная отношения, 2008.

S.S.Jiltsov, İ.S.Zonn, A.M.Uşkov, S.V.Kortunov və A.D.Boqaturovun əsərlərində[27] müasir dövrdə dünya siyasəti, yeni dünya nizamı məsələləri araşdırılır.

Y.Примаков əsərində BMT-nin sülh potensialının möhkəmləndirilməsi, Təhlükəsizlik Şurasının veto hüquqlu üzvləri arasında geosiyasi qarşıdurmalar və regional münaqişələrin nizama salınması prosesində qarşıya çıxan problemlər, BMT-də islahatlar barədə ideya və təkliflər barədə danışmış, veto hüququnun saxlanılması vacibliyini bildirmişdir[28].

Problemə ABŞ tədqiqatçıları da əsərlər həsr etmişlər. Amerikalı diplomatlar Z.Bjezinski[29] və H.Kissincerin[30] əsərlərində ABŞ, Rusiya, Böyük Britaniya, Çin, Avropa İttifaqının aparıcı dövlətləri olan Almaniya və Fransanın, Yaponiyanın, Hindistanın hazırda beynəlxalq münasibətlər sistemində tutduqları mövqedən, böyük dövlətlər arasında geosiyasi qarşıdurmalardan bəhs edilir.

ABŞ tədqiqatçısı E.B.Haasın kitabında beynəlxalq təşkilatların, xüsusən də BMT-nin mübahisələrin nizama salınmasına təsiri araşdırılmışdır. Müəllifin fikrincə, münaqişələrin nizama salınması iri dövlətlərin və BMT Baş Katibinin qətnamələri dəstəkləməsindən asılıdır[31].

Luisa Blanchfield əsərində müasir dövrdə beynəlxalq sülh və təhlükəsizliyin müdafiəsi, beynəlxalq münasibətlərdə sabitliyin saxlanılmasında rolunun artırılması məqsədilə BMT-də islahatların aparılması zəruriliyindən danışır[32].

---

[27] Жильцов С.С., Зонн И.С., США в погоне за Каспием. М.: Международные отношения, 2009; Жильцов С.С., Зонн И.С., Ушков А.М. Геополитика Каспийского региона. М.: Международные отношения, 2003; Мировая политика в условиях кризиса: Учебное пособие / под редакцией С.В.Кортунова. М.: Аспект Пресс, 2010; Современная мировая политика: Прикладной анализ / Отв. Ред. А.Д.Богатуров. М.: Аспект Пресс, 2010;

[28] Примаков Е. Мир без России? К чему ведет политическая близорукост. Москва.:ИИК Российская газета, 2009.

[29] Збигнев Бжезинский. Великая шахматная доска (Господство Америки и его геостратегические императивы) Перевод О. Ю. Уральской М.: Междунар. отношения, 1998, 255с

[30] Киссинджер Генри. Нужна ли Америке внешняя политика? / Пер. с англ. под ред. В.Л. Иноземцева. М.: Ладомир, 2002.

[31] Haas E.B. The United Nations and collective management of international conflict. New York: Unitar, 1986.

[32] Luisa Blanchfield. United Nations Reform: Background and Issues for Congress. Congressional Research Service, May 15, 2015.

Kolumbiya tədqiqatçısı Edvard C. Lak məqaləsində BMT-də aparılan islahatları mərhələlərə bölərək təhlil edir. Müəllifin fikrincə, BMT şəraitə yüksək dərəcədə uyğunlaşa bilən, üzv dövlətlərin ehtiyaclarını, dəyərlərini, tələbatlarını bilən bir qurumdur, bu islahat prosesi üzv ölkələrin təşkilat üçün etibarlılığını sınaqdan keçirdi. Konsensus olmasa da, BMT-nin daha səmərəli, şəffaf və məsuliyyətli olması üçün necə idarə olunmasında islahatların zəruriliyi ətrafında geniş razılığın əldə olunmasına kömək etdi. İslahatlar barədə proses Sülhyaratma Komissiyası və İnsan Hüquqları Şurasının yaradılması kimi bəzi yaxşı ideyaların meydana çıxmasına səbəb oldu[33].

Böyük Britaniya tədqiqatçıları J.Burton[34], E.Luard[35] öz kitablarında BMT-nin sülh və təhlükəsizliyi müdafiədə rolunu, beynəlxalq münaqişələrin nizama salınmasında BMT orqanlarının, xüsusən də Təhlükəsizlik Şurasının hüquq və səlahiyyətlərini, vəzifələrini təhlil edirlər.

Maksvell Simon məqaləsində beynəlxalq sülh və təhlükəsizliyin qorunmasında kollektiv təhlükəsizlik sisteminin inkişafı məqsədilə BMT-də islahatların aparılması məsələlərini təhlil edir[36].

Avstraliya tədqiqatçısı Sahar Okhovat kitabında Soyuq müharibə illərində və sonralar Təhlükəsizlik Şurasının daimi üzvlərinin gah təhdid kimi, gah da veto qoymaqla öz səlahiyyətlərindən istifadə etdiklərini yazır. Əsərdə Təhlükəsizlik Şurasında islahatlar barədə ayrı-ayrı dövlətlərin mövqeyi tədqiq edilir, Təhlükəsizlik Şurasında islahatlar aparılmasına mane olan amillər araşdırılır, həmçinin Avstraliyanın Təhlükəsizlik Şurasında islahatlara münasibətdə mövqeyi də göstərilir[37].

Fransa tədqiqatçısı Ş.Zorgibin əsərində BMT-nin beynəlxalq sülh və təhlükəsizliyi müdafiədə rolu, Təhlükəsizlik Şurasının daimi üzvlərindən biri olan Fransanın BMT-nin sülhməramlı əməliyyatlarında iştirakı araşdı-

---

[33]Edward C. Luck. How Not to Reform the United Nations Global Governance 11 (2005), p.407– 414.

[34] Burton J. Conflict and communication. The use of controlled communication in international relations. Londre: Oxford University press, 1989.

[35] Luard E. Conflict and peace in the modern international system. Londre: Oxford University press, 1983.

[36]Maxwell Simon UN Reform: An eight step programme for more effective collective action https://www.odi.org/sites/odi.org.uk/files/odi-assets/publications-opinion-files/668.pdf

[37]Okhovat Sahar. The United Nations Security Council: Its Veto Power and Its Reform. CPACS Working Paper No. 15/1December 2011. Australia: The Centre for Peace and Conflict Studies, 2012.

rılır. Əsərdə Almaniya və Yaponiyanın Təhlükəsizlik Şurasına daimi üzv kimi qəbul edilməsi iddiaları göstərilir[38].

Cənubi Qafqazda olan münaqişələr və onların nizama salınmasında beynəlxalq təşkilatların, BMT-nin, ATƏT-in rolu barədə Gürcüstan tədqiqatçıları B.Nakaşidze, Q.E.Nodarieviç, İ.Xaindrava, Rusiya tədqiqatçıları Y.Romançenko, V.Lutavinov və V.N.Lısenko məqalələr yazmışlar[39].

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini regional münaqişələrin səmərəli nizama salınması üçün BMT-də aparılan islahatlar, predmetiniErmənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ və Gürcüstan ərazisindəki Abxaziya və Cənubi Osetiya münaqişələrinin timsalında regional münaqişələrin həlli kontekstində BMT-də islahatların zəruriliyi və həyata keçirilməsi xüsusiyyətləri təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın aparılmasında başlıca məqsəd Cənubi Qafqazda mövcud olan münaqişələrin timsalında regional münaqişələrin həlli kontekstində BMT-də islahatların aparılması zəruriliyini araşdırmaqdır. Məqsədə nail olmaq üçün əsasən aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

-BMT-nin sülh və təhlükəsizliyi müdafiə sahəsində fəaliyyət mexanizmini araşdırmaq, Təhlükəsizlik Şurasının sülh və təhlükəsizliyi müdafiədə potensial imkanlarını təhlil etmək;

-BMT Təhlükəsizlik Şurasının daimi üzvləri olan dövlətlər arasında geosiyasi ziddiyyətlərin regional münaqişələrin nizama salınmasına təsirini araşdırmaq;

-münaqişələrin tənzimlənməsi prosesində Təhlükəsizlik Şurasının fəaliyyətindəki qüsurları araşdırmaq;

-BMT-də islahatlar, regional münaqişələrin nizama salınmasında BMT Təhlükəsizlik Şurasının rolunun artırılması barədə irəli sürülən təklifləri təhlil etmək;

---

[38]Charles Zorgbibe, La France, L'ONU et le maintien de la paix. Paris: Press Universitaires de France, 1996.

[39] Накашидзе Б. ООН: некоторые аспекты реформирования // Власть, 2005, № 6, с.56-64; Нодариевич Т.Э. Международные организации в Абхазии: цели и основные направления деятельности /teoria-practica.ru?rus? files?arxiv; Хаиндрава И. Карабах и Абхазия: Динамика неурегулирования // ентральная Азия и Кавказ, 2002, № 1, с.91-104; Романченко Й., Лутавинов В. Российское участие в международных миротворческих операциях: анализ и проблемы // Власть, 2003, №1, с.42-49.

-Təhlükəsizlik Şurasında, Baş Məclisdə, Katiblikdə, İqtisadi və Sosial Şurada, Beynəlxalq Məhkəmədə, İnsan Hüquqları Komissiyasında, Hərbi Qərargah Komitəsində aparılan islahatların regional münaqişələrin nizama salınmasına təsirini araşdırmaq;

-regional münaqişələrin nizama salınmasında BMT-nin regional və subregional təşkilatlarla əməkdaşlığının təsirlərini araşdırmaq;

-Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin BMT çərçivəsində həlli yolları barədə təkliflər irəli sürmək;

-Abxaziya və Cənubi Osetiya münaqişəsinin BMT çərçivəsində həlli yolları barədə təkliflər vermək;

-regional münaqişələrin həlli kontekstində BMT-də islahatların aparılmasına dair elmi əsaslandırılmış tövsiyələr irəli sürmək.

**Tədqiqatın nəzəri-metodoloji əsasları.** Tədqiqatın nəzəri bazasını ilk növbədə Ümummilli lider Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxış və nitqlərində problemlə bağlı irəli sürülmüş konseptual fikir və müddəalar, BMT-nin Baş katibi olmuş Butros Butros Qalinin, Kofi Annanın, Kofi Annanın uzun müddət məsləhətçisi olmuş Əlcəzairin xarici işlər naziri Laxdar Braximinin, Baş katibin müavini olan Marrak Quldinqin, BMT-də ali vəzifədə olan Brayan Urkxartın, Venesuelanın BMT yanındakı nümayəndəsi Dieqo Arrianın, BMT-də islahatlar aparmaq üçün yaradılmış 16 tanınmış siyasi xadimdən ibarət Təhlükələr və dəyişikliklər üzrə yüksək səviyyəli qrupun, ayrı-ayrı dövlətlərin ideya və təklifləri,eləcə də bu sahədəki fundamental əsərlər təşkil edir. Dissertasiya işində əsas nəzəri baza kimi beynəlxalq hüquq normaları ilə bağlı sənədlərdən, BMT-nin Nizamnaməsindən, qəbul edilən konvensiyalardan, qərarlardan, qətnamələrdən də istifadə edilmişdir.

Tədqiqatın metodoloji əsasınıisə dünya siyasətşünaslıq elmində qəbul edilmişümumi prinsiplər təşkil edir.Problemin kompleks tədqiqi üçünanaliz və sintez,sistemli, müqayisəli, tarixi yanaşma, tənqidi təhlil və ümumiləşdirmə metodlarından geniş istifadə olunmuşdur.

**Tədqiqatın mənbəşünaslıq bazası.** Dissertasiya işi zəngin mənbə bazası əsasında yazılmışdır. Dissertasiyanın yazılmasında istifadə edilən mənbə və ədəbiyyatın bir qismi ilk dəfə olaraq elmi dövriyyəyə cəlb edilmişdir. İstifadə edilən mənbələri əsasən aşağıdakı kimi qruplaşdırmaq olar: BMT sənədləri; Azərbaycan Respublikasının xarici siyasət sənədləri; Dövlət və ictimai xadimlərin nitq və əsərləri; sənədlər topluları; beynəlxalq hüquq normalarının əks olunduğu sənədlər; internet məlumatları.

**Dissertasiyanın elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

- Azərbaycan siyasi elmində ilk dəfə olaraq tədqiq edilmişdir;

- Beynəlxalq münasibətlər və beynəlxalq hüquq sahələri üzrə yazılan əsərlər, bir çox normativ hüquqi sənədlər toplusu, BMT-nin sənədləri, Azərbaycan Respublikasının xarici siyasət sənədləri, dövlət və ictimai xadimlərin nitq və əsərləri; sənədlər topluları, beynəlxalq hüquq normalarının əks olunduğu sənədlər və digər mənbələrin bir çoxu ilk dəfə elmi dövriyyəyə cəlb olunaraq, Cənubi Qafqazda olan Dağlıq Qarabağ, Abxaziya və Cənubi Osetiya münaqişələrinin timsalında regional münaqişələrin həlli kontekstində BMT-də zəruri islahatların aparılması problemi ilk dəfə olaraq Azərbaycan siyasi elmində hərtərəfli, kompleks şəkildə tədqiq olunmuşdur;

- BMT-nin sülh və təhlükəsizliyi müdafiə sahəsində fəaliyyət mexanizmləri, Təhlükəsizlik Şurasının sülh və təhlükəsizliyi müdafiədə potensial imkanları öyrənilmişdir;

-BMT Təhlükəsizlik Şurasının daimi üzvləri arasında mövcud olan ziddiyyətlərin regional münaqişələrin nizama salınmasında yaratdığı problemlər araşdırılmışdır;

- Təhlükəsizlik Şurasının fəaliyyətində mövcud olan qüsurlar, veto hüququnun regional münaqişələrin nizama salınmasına təsirləri araşdırılmışdır;

-BMT-də islahatlar, regional münaqişələrin nizama salınmasında BMT Təhlükəsizlik Şurasının rolunun artırılmasına dair irəli sürülən təkliflər öyrənilmişdir;

- Təhlükəsizlik Şurasında, Baş Məclisdə, Katiblikdə, İqtisadi və Sosial Şurada, Beynəlxalq Məhkəmədə, İnsan Hüquqları Komissiyasında, Hərbi Qərargah Komitəsində aparılan islahatların regional münaqişələrin nizama salınmasına təsiri öyrənilmişdir;

-Regional münaqişələrin nizama salınmasında BMT-nin regional və subregional təşkilatlarla əməkdaşlığının təsirləri təhlil edilmişdir;

-Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin BMT çərçivəsində həlli yolları barədə təkliflər irəli sürülmüşdür;

-Abxaziya və Cənubi Osetiya münaqişələrinin BMT çərçivəsində həlli yolları barədə təkliflər verilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti**. Tədqiqat prosesində əldə etdiyimiz elmi nəticələr müəyyən ümumiləşdirmələr aparmağa imkan vermişdir. Dissertasiya təhlil istiqamətləri, nəzəri yanaşma və araşdırma me-

todları baxımından sonrakı tədqiqatlar üçün elmi-nəzəri mənbə ola bilər. Onun əsas müddəaları və nəticələrindən istifadə edilə bilər:

-regional münaqişələrin həlli kontekstində BMT-də islahatlar barədə nəzəri-metodiki mühakimələrin genişlənməsində;

-regional münaqişələrin həlli kontekstində BMT-də islahatların zəruriliyinin araşdırılması istiqamətində elmi baza kimi;

- BMT və regional münaqişələrin nizama salınması probleminə həsr edilmiş gələcək elmi-tədqiqat işlərində, ümumiləşdirilmiş əsərlərin, dərslik və dərs vəsaitlərinin yazılmasında;

- universitetlərdə mühazirələrin oxunmasında, seminar məşğələlərində;

- problemə dair keçirilən elmi konfrans, seminar və dəyirmi masalar zamanı müzakirələrdə.

Tədqiqatın praktik əhəmiyyəti vardır. Bu, özünü aşağıdakı tezisində göstərir:

-təkliflər hissəsində tədqiqatın fərziyyələri və ondan əldə edilmiş nəticələr əsasında ümumiləşdirilmələr aparılmış, Cənubi Qafqazda olan Dağlıq Qarabağ, Abxaziya və Cənubi Osetiya münaqişələrinin BMT çərçivəsində həlli yolları barədə elmi əsaslandırılmış təkliflər irəli sürülmüşdür;

-verilən təkliflərdən və çıxarılan nəticələrdən BMT-də islahatlar aparılmasına dair fikirlərin formalaşmasında, regional münaqişələrin BMT çərçivəsində diplomatik yollarla nizama salınmasına dair siyasətin müəyyən olunmasında, Cənubi Qafqazdakı münaqişələrin dinc yollarla tənzimlənməsinə dair siyasətin müəyyən olunmasında, BMT ilə diplomatik əlaqələrlə məşğul olan Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin, Azərbaycanın BMT yanındakı Daimi Nümayəndəliyinin fəaliyyətində istifadə edilə bilər;

-Azərbaycanın xarici siyasətinin təbliğində, qeyri-hökumət təºkilatlarının fəaliyyətində yararlanıla bilər.

**Dissertasiyanın aprobasiyası.** Tədqiq olunan problem ölkə daxilində və xaricində keçirilən beynəlxalq elmi toplantılarda geniş aprobasiyadan keçirilmişdir. Elmi işin mövzusuna dair 52 elmi məqalə, 7 tezis, o cümlədən xaricdə 14 elmi məqalə, 4 tezis çap edilmiş və bunlarda dissertasiyanın məzmunu öz əksini tapmışdır. Mövzu ilə bağlı “Beynəlxalq münasibətlərin müasir problemləri və BMT” (2012) adlı elmi monoqrafiya, “Diplomatik portretlər” adlı monoqrafiya (2015) nəşr etdirilmişdir.

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutunun Beynəlxalq münasibətlər və beynəlxalq hüquq və Poli-

tologiya və Siyasi Sosiologiya şöbələrinin birgə keçirdikləri 2014-cü il 21 noyabr tarixli iclasında (protokol N17) müzakirə edilmiş və müdafiəyə tövsiyə edilmişdir.

**Dissertasiyanın strukturu.** Dissertasiya ixtisarların siyahısı, giriş, beş fəsil (16 yarımfəsil), nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı əsaslandırılır, problemin işlənmə dərəcəsi təhlil edilir, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri, nəzəri-metodoloji əsasları, mənbəşünaslıq bazası, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, aprobasiyası və dissertasiyanın strukturu göstərilir.

İşin **I Fəsli"BMT-də sülh, təhlükəsizlik məsələləri və veto hüququnun regional münaqişələrə təsiri"** adlanır və 2 yarımfəsildən ibarətdir.

**"BMT-də sülh və təhlükəsizliyi müdafiə imkanları"** adlanan yarımfəsildə BMT-nin beynəlxalq sülh və təhlükəsizliyi müdafiə üçün potensial imkanları, Təhlükəsizlik Şurasının, Baş Məclisin hüquq və vəzifələri araşdırılır. Bu yarımfəsildə ümumiləşdirmə aparılaraq belə elmi nəticə əldə edilmişdir ki, Təhlükəsizlik Şurasında olan aşağıdakı qüsurlar BMT-nin beynəlxalq sülh və təhlükəsizliyi müdafiədə fəaliyyətinin zəif olmasına səbəb olur: Birincisi, daimi üzvlərin veto hüququ və bu veto gücü qurumu qeyri-demokratik etmişdir. Daimi üzvlər veto gücündən bir-birinə qarşı siyasi silah kimi istifadə edirlər. İkincisi, silahlanmanın artması, münaqişə yaşayan dövlətlərə silah satmaları marağı münaqişələrin nizama salınmasında Təhlükəsizlik Şurasının öz məsuliyyətini yerinə yetirməsinə imkan vermir. Üçüncüsü, regional qruplarına görə Təhlükəsizlik Şurasının daimi və müvəqqəti üzvləri Soyuq müharibə dövrünə uyğun regionlar üzrə seçilirlər. Dördüncüsü, Baş Məclis və Təhlükəsizlik Şurası üzvlərinin sayı arasında qeyri-bərabərlik mövcuddur. Hazırda daimi üzvlər Təhlükəsizlik Şurasına gələn mübahisəli bir məsələnin qarşısını almaq üçün lobbiçilik edirlər. Bəzən isə "cib vetosuna" əsaslanırlar, yəni istəmədikləri layihənin gündəliyə gətirilməsinin qarşısını alırlar. Belə hallar daimi üzvlərin vetodan istifadə etmələrini nəzərə çarpdırmaması və beynəlxalq sülhün və təhlükəsizliyin qorunması üçün manea kimi görünməmələri üçün lazımdır. Təhlükəsizlik Şurasında 1963-cü ildə islahatlar zamanı daimi üzvlər saxlanılmaqla, müvəqqəti üzvlərin sayının artırılması regional münaqişələrin niza-

ma salınmasında BMT-nin səmərəliliyini artırmadı. Yeni islahatlarda veto hüququnun ləğv edilməsi, Təhlükəsizlik Şurasının Nizamnamənin sülhə məcburetmə bölmələrindən istifadə etməsi imkanları nəzərdən keçirilməlidir. İslahatlar yalnız Təhlükəsizlik Şurasında deyil, həmçinin Baş Məclisdə, İqtisadi və Sosial Şurada, Katiblikdə, Beynəlxalq Məhkəmədə, Hərbi Qərargah Komitəsində, BMT-nin ixtisasiaşmış qurumlarında aparılmalıdır.

**"BMT Təhlükəsizlik Şurasının veto hüquqlu üzvləri arasında geosiyasi mübarizə və regional münaqişələrin nizamlanmasına onun təsiri"** adlanan yarımfəsildə göstərilir ki, Təhlükəsizlik Şurasının daimi üzvləri arasında geosiyasi ziddiyyətlər mövcuddur və Təhlükəsizlik Şurası hər hansı sanksiyanı verdikdə sözsüz ki, veto qoymaq hüququ olan dövlət öz maraqlarını ifadə edəcəkdir. Təhlükəsizlik Şurasının daimi üzvləri arasında mövcud olan ixtilaf və geosiyasi mübarizə, silah satışı və s. məsələlər dünyanın müxtəlif regionlarındakı münaqişələrin tənzimlənməsinə mane olur, özü ilə çoxlu problemlər doğurur. BMT Nizamnaməsinə əsasən Təhlükəsizlik Şurasının daimi üzvlərinin qarşılıqlı məsləhətləri birgə fəaliyyət üçün vacib məsələlərdəndir. Lakin daimi üzvlər arasında yekdil fikrin olmaması və onların veto hüququndan istifadə edərək özlərinin geosiyasi maraqlarını həyata keçirməsi beynəlxalq münaqişələri nizama salmaq üçün veto hüququnun ləğv edilməsi, yaxud saxlanılması məsələsinin araşdırılmasını aktual edir. Aparılan tədqiqatlar belə bir nəticəyə gəlməyə imkan verir ki, veto hüququnun ləğv edilməsinə daimi üzvlər heç zaman razı olmazlar. Bu hüququn ləğv edilməsi üçün Baş Məclisin 1950-ci ildə qəbul etdiyi "Sülh naminə əməkdaşlıq" qətnaməsini həyata keçirmək lazımdır. Bu qətnaməyə əsasən hər hansı bir problem barədə Təhlükəsizlik Şurasında razılıq əldə edilməzsə, BMT silahlı qüvvələri yaradılana qədər üzv dövlətlərə müvafiq tədbirlər görmək səlahiyyəti verilir[40].

**II Fəsil"BMT-də islahatlar barədə təkliflər"** adlanır və 2 yarımfəsildən ibarətdir.

**"Regional münaqişələrin nizama salınması mexanizmində islahatların keçirilməsini şərtləndirən beynəlxalq şərait"** adlanan yarımfəsildə göstərilir ki, XX əsrin 90-cı illərində meydana çıxan yeni qlobal problemlər BMT-nin əməliyyatlarının xarakterini dəyişdi, iki fövqəldövlətin qarşıdur-

---

[40] Резолюции 5-й сессии (1950 год), A/RES/377(V) 3 ноября 1950 года. Единство в пользу мира. http: // www.un.org/russian

masından azad olan Təhlükəsizlik Şurası sülh və təhlükəsizliyi təmin etmək üçün BMT-nin daha iri və mürəkkəb missiyalarını təşkil etdi. Əvvəllər böyük dövlətlər maraqları olan regiona hərbi kontingent göndərməkdə iştirak etmirdilərsə, 90-cı illərdən başlayaraq, ABŞ, Fransa, Böyük Britaniya, Rusiya münaqişə zonalarına hərbi kontingent göndərməyə üstünlük verirlər. Məsələn, ABŞ, Böyük Britaniya Yaxın və Orta Şərq ölkələrinə, Fransa Afrika regionuna, Rusiya keçmiş sovet məkanında olan münaqişə regionlarına hərbi kontingent göndərir. Hazırda BMT nəinki münaqişələrin qarşısını almaq üçün sülhməramlı əməliyyatlar həyata keçirir, həm də münaqişə regionuna humanitar yardım edir və BMT-nin sülhməramlı əməliyyatları əksər halda regional təşkilatlarla əməkdaşlıqda həyata keçirilir. Artıq sülhməramlıların yalnız atəşkəs xətti boyunca yerləşdirilməsi məqsədəuyğun deyil, sülh əməliyyatlarında polis qüvvələrinin, hərbi müşahidəçilərin iştirak etməsinə, yerlərdə seçkilər keçirilməsinə, insan hüquqlarına riayət edilməsinə, demokratiya və söz azadlığı institutlarının möhkəmləndirilməsinə nəzarət etmək tələbatı yaranmışdır.

**“BMT-də islahatlara dair görkəmli siyasi xadimlərin baxışları”** adlanan yarımfəsildə BMT-də islahatlar barədə siyasi xadimlərin, o cümlədən Butros Butros Qalinin, Kofi Annanın, Heydər Əliyevin, İlham Əliyevin, Laxdar Braximinin, Marrak Quldinqin, Brayan Urkxartın, Dieqo Arrianın, Təhlükələr və dəyişikliklər üzrə yüksək səviyyəli qrupun, ayrı-ayrı dövlətlərin ideya və təklifləri araşdırılmışdır.

Butros Butros Qali BMT-nin maliyyə ehtiyatlarının artırılmasını, Təhlükəsizlik Şurasının tərkibinin genişləndirilməsini, digər orqanlarla əlaqələrinin genişləndirilməsini, Baş Məclisdə qətnamələrin səs verilmədən, konsensus əsasında qəbul edilməsinin ləğv edilməsini, Beynəlxalq Məhkəmənin potensialının inkişaf etdirilməsini təklif edir və veto hüququnun bir çox münaqişələrin nizama salınmasına mane olduğunu qeyd edirdi.

Kofi Annan Təhlükəsizlik Şurasının tərkibinin dəyişdirilməsi, veto hüququnun ləğv edilməsi, Baş Məclisdə müzakirələr prosesinin tezləşdirilməsi, iqtisadi və sosial sahədə müxtəlif hökumətlərarası təşkilatların qüvvələrinin səfərbər edilməsi, Baş katib və heyət üzvlərinin öz vəzifələrini heç kəsdən asılı olmayaraq müstəqil həyata keçirməsi, Beynəlxalq Məhkəmə yolu ilə mübahisələrə baxılması, maliyyə çətinliyinin aradan qaldırılması, regional təşkilatlarla əməkdaşlığın inkişaf etdirilməsi, qeyri-qanuni silah satışının qarşısının alınması, BMT heyətinin təhlükəsizliyinin təmin edilməsi, insan hüquqlarının müdafiəsi, Baş Məclisdə $^{2}/_{3}$ səs çoxluğu ilə İnsan hüquqları Şurasının yaradılması, Nizamnamədən “düşmən dövlət”, Qəy-

yumluq Şurası, Hərbi Qərargah Komitəsi ilə bağlı maddələrin çıxarılması təkliflərini irəli sürmüºdü.

Ümummilli lider Heydər Əliyev BMT Nizamnaməsi ilə nəzərdə tutulmuş qətiyyətli tədbirlər ilə Təhlükəsizlik Şurasının qətnamələri yerinə yetirməkdə fəaliyyətinin gücləndirilməsinin, Şuranın tərkibinin genişləndirilməsinin, Baş Məclisin rolunun artırılmasının, Baş katibin öz səlahiyyətlərindən səmərəli istifadə etməsinin, üzv dövlətlər arasında sıx qarşılıqlı fəaliyyətin olmasının zəruriliyini, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Təhlükəsizlik Şurasının tərkibinin genişlənməsi ideyasını dəstəklədiyini, BMT mexanizminin yenidən işlənməsi, xüsusilə də veto hüququna yenidən baxılması, Təhlükəsizlik Şurası qətnamələrinin həyata keçirilməsinin işlək mexanizminin yaradılması zəruriliyini bildirmişdir. BMT-nin sülh əməliyyatlarının səmərəli olması üçün L.Braximi insan hüquqlarının müdafiəsi, humanitar yardım, departamentlərdə nizam-intizam məsələsini ön plana çəkirdisə, M.Quldinq regional təşkilatların, ayrı-ayrı dövlətlərin, xüsusən də Təhlükəsizlik Şurasının üzvlərinin hərbi kontingent verməsini təklif edirdi. B.Urkxart M.Quldinq kimi özünümüdafiə halları istisna olmaqla, BMT qüvvələrindən istifadə etməməyi, üzv dövlətlərin hərbi kontingent verməyə hazır olmasını təklif edirdi. D.Arrianın Təhlükəsizlik Şurası üzvlərinin münaqişə tərəfləri ilə görüşlər keçirməsi ideyası təcrübədən keçsə də, müvəffəqiyyət qazanmadı. Təhlükələr və dəyişikliklər üzrə yüksək səviyyəli qrupun Təhlükəsizlik Şurasında islahatlar barədə təklif etdiyi 1-ci modeldə Afrika, Asiya və Sakit Okean, Avropa və Amerika qitələrindən heç birinin veto hüququ olmayan 6 yeni daimi üzvün, 3 yeni müvəqqəti, yəni 2 il müddətinə seçilmiş üzvün olması nəzərdə tutulmuşdu. Qrupun təklif etdiyi 2-ci modeldə Təhlükəsizlik Şurasında heç bir yeni daimi üzvün olmaması, yeni kateqoriya ilə 4 il müddətinə 8 üzv seçilməsi göstərilmişdi. Göründüyü kimi, heç bir modeldə yeni daimi üzvlərin veto qoymaq hüququ yoxdur. Bununla belə, aparılan təhlil göstərir ki, 2-ci modeli məqsədəuyğun hesab etmək olar. Təhlükələr və dəyişikliklər üzrə yüksək səviyyəli qrupun sanksiyaların tətbiq edilməsi, silah satışına embarqo qoymaq daxil olmaqla, Təhlükəsizlik Şurasının nəzarət mexanizminin yaradılması, Baş Məclisin fəaliyyətinin canlandırılması, inkişaf etmiş dövlətlərin münaqişələrin nizama salınmasında rolunun artırılması, regional və subregional təşkilatların potensialından istifadə edilməsi, İnsan Hüquqları Komissiyasının, Katibliyin təkmilləşdirilməsi, beynəlxalq təhlükəsizliyi iqtisadi və sosial cəhətdən dirçəltmək üçün yeni institut mexanizminin yaradılması, beynəlxalq maliyyə təşkilatlarının, Avropa İttifaqının BMT-nin

proqramlarının həyata keçirilməsinə kömək etməsi barədə təkliflər verməsi müasir dövrün tələblərinə cavab verir.

Bu yarımfəsildə həmçinin BMT-nin üzvü olan dövlətlərin ideya və təklifləri də araşdırılmışdır. Aparılan tədqiqatlar göstərir ki, islahatlar barəsində üzv dövlətlər arasında yekdil fikir yoxdur. Almaniya və Yaponiya veto hüququnu müdafiə edərək daimi üzvlüyə Yaponiya, Braziliya, Almaniya və Hindistanın, 2 Afrika dövlətinin daxil edilməsinə, Afrika dövlətləri Afrikadan 2 daimi üzv seçilməsinə, İsveçrə, İordaniya, Kosta-Rika, Lixtenşteyn, Sinqapur Təhlükəsizlik Şurasının iş metodunun yaxşılaşdırılmasına, digər orqanlarla əməkdaşlığının genişləndirilməsinə, Təhlükəsizlik Şurası üzvləri və digər dövlətlər arasında müntəzəm məsləhətləşmələr keçirilməsinə, veto hüququnun saxlanılmasına üstünlük verirlər. Belarus Respublikası Baş Məclisin beynəlxalq sülh və təhlükəsizlik məsələlərində rolunun artırılmasını, Baş katibin seçilməsində ədalətli regional rotasiya prinsipinin möhkəmləndirilməsini təklif edir. Makedoniya, Latviya, Litva Baş Məclisin gündəliyinə çıxarılan məsələlər barədə qərar verən Baş Komitənin tərkibinin genişləndirilməsi, Şərqi Avropa dövlətlərinin də bu quruma daxil edilməsi barədə fikir irəli sürürlər. GUAM təşkilatına daxil olan dövlətlər – Gürcüstan, Ukrayna, Azərbaycan və Moldava Şərqi Avropa dövlətlərinin Təhlükəsizlik Şurasında 1 müvəqqəti yer alması istəyini bildirirlər. Misir həm daimi, həm də müvəqqəti üzvlüyə inkişaf etməkdə olan dövlətlərin, xüsusən də Afrika dövlətlərinin daxil olmasını təklif edir. Özbəkistan İnsan Hüquqları Komissiyasında islahatlar aparılması zəruriliyini bildirir. İran İslam Respublikası Təhlükəsizlik Şurasının bütün beynəlxalq birlik adından çıxış etmədiyini vurğulayır və Qoşulmama hərəkatına üzv dövlətlərin, İslam Əməkdaşlıq Təşkilatı üzvlərinin və Afrika dövlətlərinin Təhlükəsizlik Şurasında veto hüquqlu daimi üzv kimi yer almaları ideyasını irəli sürür. Böyük Britaniya və Fransa veto hüququnun qalmasını dəstəkləyirlər. Coğrafi bölgü amilini ikinci dərəcəli hesab edən ABŞ BMT sisteminə daha çox maliyyə qoya biləcək və onun maraqlarını Uzaq Şərqdə müdafiə edə biləcək Yaponiyanın daimi üzv olmasını, İnsan Hüquqları Şurasında islahatların keçirilməsini dəstəkləyir. Rusiya Braziliyanın, Almaniyanın, Yaponiyanın, Hindistanın, Nigeriyanın namizədliyini, daimi üzvlərin statusunun toxunulmazlığını, indiki daimi üzvlərin saxlanılmasını, Baş Məclisdə islahatlar keçirilməsini, qətnamələrin sayının azaldılmasını və onların praktiki məna kəsb etməsini, ixtisaslaşmış orqanların fəaliyyətinin artırılmasını, zəruri halda yenilərinin artırılmasını, Qəyyumluq Şurasının ləğv edilməsini, Baş katibin statusunun artırılmasını, o cümlədən

seçki prinsipinin dəyişdirilməsini, Hərbi Qərargah Komitəsinin islahatlar aparılmaqla saxlanılmasını dəstəkləyir.

**III Fəsil“İslahatların perspektivləri beynəlxalq münasibətlər kontekstində”** adlanır və 3 yarımfəsildən ibarətdir.

**“Regional münaqişələrin nizama salınması üçün BMT-nin əsas və köməkçi orqanlarında aparılması zəruri olan islahatlar”** adlı yarımfəsildə qeyd edilir ki, BMT-də islahatlar aparılması barədə təkliflər vermək üçün yaradılmış Təhlükələr və dəyişikliklər üzrə yüksək səviyyəli qrupun Təhlükəsizlik Şurasında islahatlar barədə təklif etdiyi hər iki modeldə yeni daimi üzvlərə veto hüququnun verilməməsi nəzərdə tutulur. Qrupun yeni kateqoriya ilə veto hüquqlu daimi üzvlər əvəzinə 4 il müddətinə 8 üzv seçilməsi fikrini düzgün hesab etmək olar. Veto hüququnu ləğv etmək şərti ilə, Təhlükəsizlik Şurasının daimi üzvləri sırasına Almaniya, Yaponiya, Hindistan, Braziliya və Türkiyənin, müsəlman ölkələrinin, Afrika ölkələrinin nümayəndəsinin seçilməsi və nəticədə Təhlükəsizlik Şurasının tərkibinin genişləndirilməsi məqsədəuyğundur.

Baş Məclisin qərar və qətnamələrinin tövsiyə xarakteri daşıması, Təhlükəsizlik Şurasının 5 daimi üzvünün bütün əsas orqanlarda iştirak edərək qəbul edilən qərarlara, irəli sürülən təşəbbüslərə təsir göstərməsi Baş Məclisin, eyni zamanda dövlətlərin suverenlik hüquqlarını məhdudlaşdırır. Baş Məclisin rolunu artırmaq, kollektiv qərarları yerinə yetirmək sülh potensialını möhkəmlədə bilər. Baş Məclisin gündəliyində duran məsələ qısa vaxtda müzakirə edilməli, qəbul edilən qətnamələr təkrarlanmamalı, həyata keçirilməlidir. Hər hansı bir problem barədə Təhlükəsizlik Şurasında razılıq əldə edilməzsə, Baş Məclisin 1950-ci il “Sülh naminə əməkdaşlıq” qətnaməsinin tətbiq edilməsi, ayrı-ayrı orqanlarda müzakirə edilən məsələlərin yenidən Baş Məclisə gətirilərək, 2/3 səs çoxluğu ilə onlar barəsində qərar və qətnamələrin qəbul edilməsi BMT-də təmsil olunan dövlətlərin suverenlik hüquqlarının bir daha təsdiq edilməsinə imkan verər. Beynəlxalq sülh və təhlükəsizliyin müdafiəsinin müsbət nəticə verməsi Baş katibin və onun köməkçilərinin təşkil etdikləri missiyaların münaqişə regionunda səmərəli fəaliyyətindən və Təhlükəsizlik Şurasına informasiya verilməsindən çox asılıdır. Başqa sözlə, Təhlükəsizlik Şurası və Katiblik arasında əməkdaşlığın möhkəmləndirilməsi sülh və təhlükəsizliyi müdafiədə vacib amillərdən biridir. Baş katib Təhlükəsizlik Şurasını daimi olaraq beynəlxalq sülh və təhlükəsizliyi hədələyən potensial münaqişələr barədə məlumatlandırmalıdır. Sülhquruculuğu dövründə qaçqın və məcburi köçkünlərin təhlükəsiz şəraitdə öz yurdlarına qayıtması, ərazilərin minalardan zərərsizləşdiril-

məsi, yoluxucu xəstəliklərlə mübarizə, münaqişə zonasında olan əhalinin ərzaqla, gündəlik tələbatla təmin edilməsi, humanitar yardım göstərilməsi, bərpaetmə və digər işlərdə əsas vəzifələr ixtisaslaşmış qurumların, beynəlxalq maliyyə institutlarının, qeyri-hökumət təşkilatlarının üzərinə düşür və bu qurumların Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və Sosial Şura, Katiblik ilə sıx əməkdaşlığı sülhquruculuğunun səmərəli həyata keçirilməsinə gətirib çıxara bilər. Beynəlxalq hüquq normalarının Beynəlxalq Məhkəmə vasitəsilə həyata keçirilməsi beynəlxalq münasibətlərin tarazlaşdırılmasında mühüm amildir. Beynəlxalq Məhkəmə digər əsas orqanlarla, eləcə də ixtisaslaşmış qurumlarla, o cümlədən İnsan Hüquqları Şurası, lazım olan vaxtda BMT-nin yaratdığı Kompensasiya Komissiyası, Beynəlxalq Məhkəmə Komissiyası və s. ilə sıx əməkdaşlıq etməlidir. Sülh və təhlükəsizliyi müdafiə etmək üçün Təhlükəsizlik Şurası və Beynəlxalq Məhkəmə arasında sıx əməkdaşlıq olmalıdır. Təhlükəsizlik Şurası regional münaqişədə təcavüzkar tərəfi müəyyənləşdirmədikdə, Beynəlxalq Məhkəmənin bu hüququ həyata keçirməsi hüququ olmalıdır. Beynəlxalq münaqişələrin nizama salınması üçün Beynəlxalq Məhkəməyə müraciət etməyə üstünlük verilməlidir. Soyqırım cinayətinin qarşısının alınması və ona görə cəzalandırma barədə konvensiyaya əsasən soyqırım, bəşəriyyət əleyhinə cinayətlər və hərbi cinayətlərdə təqsirli bilinənlər barədə xüsusi tribunallar təşkil edilməlidir. BMT-nin Hərbi Qərargah Komitəsinin zəifliyindən, sərəncamında kifayət qədər sülhməramlılar olmamasından istifadə edərək, ya NATO münaqişə zonalarında dominantlığı öz əlinə alır, ya da ayrı-ayrı kontingent verən dövlətlər münaqişəni öz mənfəətlərinə uyğun həll etməyə çalışırlar. Vaşinqton müqaviləsinin 10, 11, 13 və 14-cü maddələrində ABŞ-ın NATO-da digər üzv dövlətlərdən fərqli yer tutduğu açıq-aydın görünür və bu qurumun dünyanı məngənəyə salması ABŞ-ın dünyada hegemonluğu deməkdir. BMT-nin Hərbi Qərargah Komitəsinin fəaliyyəti gücləndirilərsə və onun kifayət qədər sülhməramlı qüvvələri olarsa, NATO-nun hərbi qüvvələrinə ehtiyac olmaz. Eyni zamanda ayrı-ayrı kontingent verən dövlətlərin maraqları olduğu regional münaqişələrin “nizama salınmasında” iştirak etməsi məqsədəuyğun deyil. Məsələn, Cənubi Qafqazda, xüsusən də Gürcüstanın Abxaziya və Cənubi Osetiya regionlarında öz hərbi kontingentini yerləşdirən Rusiya bu münaqişələri öz xeyrinə həll etməyə çalışır. İnsan Hüquqları Şurasının fəaliyyəti siyasiləşdirilməməli, insan hüquqlarının tam təmin edilməsinə yönəldilməlidir. Dövlətlərin insan hüquqlarına nə səviyyədə hörmət etdikləri nəzarət altında saxlanılmalı, münaqişə zonalarına bu məqsədlə missiyalar göndərilməlidir. Silahlı münaqişələrin qarşısını

almaq üçün bütün üzv dövlətlər BMT-nin fəaliyyət proqramını həyata keçirərək insan hüquqlarını müdafiə etməli, qanunsuz silah satışına qarşı, silahlı münaqişələrin olduğu rayonlarda təbii ehtiyatların istilası və qeyri-xammal malların mübadiləsinə qarşı, işğal edilən ərazilərə qanunsuz olaraq işğalçı dövlətin əhalisinin köçürülməsinə qarşı mübarizə etməlidirlər.

**"Münaqişələrin tənzimlənməsində BMT-nin regional və subregional təşkilatlarla əməkdaşlığının perspektivləri"** adlı yarımfəsildə göstərilir ki, BMT-nin effektivliyinin artırılması meyarlarından biri bu universal təşkilatın sülhməramlı fəaliyyətdə regional və subregional təşkilatlarla əməkdaşlıq etməsidir. Bu əməkdaşlıq BMT Nizamnaməsinin VIII fəslinə müvafiq olaraq həyata keçirilməlidir. Əks halda regional təşkilatın fəaliyyəti səmərəli olmaz və hətta regionda münaqişənin genişlənməsinə gətirib çıxarar. Buna misal olaraq, yuxarıda qeyd etdiyimiz kimi, MDB-nin Gürcüstanda, ATƏT-in Azərbaycanda səmərəsiz fəaliyyətini göstərmək olar. BMT-nin regional və subregional təşkilatlarla əməkdaşlığı Nizamnamənin 52-54-cü maddələrinə uyğun həyata keçirilmədikdə neqativ hallarla nəticələnir. Bu maddələrə görə BMT-nin regional təşkilatlar və sazişlərlə əməkdaşlığı yerli mübahisələrin Təhlükəsizlik Şurasına verilməsindən əvvəl dinc yollarla həll edilməsinə imkan yaradır.Eyni zamanda, Təhlükəsizlik Şurası regional və subregional təşkilatların rəhbərləri ilə müntəzəm müşavirə keçirməli, onların münaqişələrin nizama salınmasında rolu göstərilməlidir. Belə ki, regional təşkilat nizamasalmada qərəzli mövqedən çıxış edə bilər, iri region dövləti öz "sülhməramlı" cəhdlərindən istifadə edərək regionda xüsusi maraqlarını həyata keçirməyə çalışa bilər. Eyni zamanda, regional təşkilat nizamasalmada tək hərəkət edə bilməz. Bir qayda olaraq, onun dünya birliyini cəlb etmək üçün imkanları azdır və belə bir şəraitdə BMT-nin regional təşkilatlarla sülhməramlı qüvvələrini birləşdirmək zərurəti ortaya çıxır.

**IV Fəsil"Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində BMT-nin rolu"** adlanır və 7 yarımfəsildən ibarətdir.

**"Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün səbəb və nəticələri"** adlanan yarımfəsildə aparılan təhlil Ermənistanın beynəlxalq hüquq normalarını kobud şəkildə pozduğunu, əsassız ərazi iddiaları ilə Azərbaycana qarşı hərbi təcavüz etdiyini, ərazilərinin bir qismini işğal etdiyini, Ermənistandan azərbaycanlıları tarixi torpaqlarından qovaraq qaçqına, Azərbaycanın Dağlıq Qarabağ regionundan və ətraf ərazilərindən azərbaycanlı əhalini qovaraq məcburi köçkünə çevirdiyini, tarix və mədəniyyət abidələrini dağıtdığını, işğalın gedişində soyqırımlar həyata

keçirdiyini, bəşəriyyətə və sivilizasiyaya qarşı cinayət törətdiyini göstərir. Bu yarımfəsildə göstərilir ki, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzündə əsas səbəb Ermənistanın Azərbaycan torpaqlarını özünə ilhaq etmək istəyidir. Ermənistanın məqsədi tarixdə olmayan "Böyük Ermənistan" qurmaq üçün addım atmaq olmuşdur. Ermənistanın anneksiya siyasəti nəticəsində ərazisi 4,4 min km$^2$ olan Dağlıq Qarabağ, ərazisi 12,719 km$^2$ olan Dağlıq Qarabağ ətrafı rayonları, ərazisi 849 km$^2$ olan Ermənistanla sərhəd rayonların kəndləri işğal edildi. Nəticədə 20000-dən çox insan həlak olmuş, 50000-dən çox insan yaralanmış, yaxud şikəst olmuş, təxminən 4866 nəfər əsir və girov düşmüşdür. 1 milyondan çox insan qaçqın və məcburu köçkün vəziyyətinə düşdü.Azərbaycan ərazilərinin Ermənistan silahlı qüvvələrinin işğalı nəticəsində itki və tələfatların qiymətləndirilməsi üzrə işçi qrupunun məlumatına görə, Ermənistanın ölkəmizə vurduğu zərərin yekun məbləği 816,15 milyard dollar həcmindədir.

**"Ermənistanın informasiya müharibəsinin münaqişənin nizama salınmasına təsiri"** adlanan yarımfəsildə göstərilir ki, münaqişənin ilk mərhələsindən başlayaraq Ermənistan Dağlıq Qarabağ münaqişəsi barədə BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirməməklə yanaşı, münaqişə barədə dünya birliyində müxtəlif formalarda dezinformasiya yaratmağa cəhd etdi, başqa sözlə, Azərbaycana qarşı dezinformasiya müharibəsi apardı. Ermənistan guya Dağlıq Qarabağ ərazisinin tarixən ona mənsub olması barədə dünya birliyinə yalan məlumatlar verir, Dağlıq Qarabağda yaşayan ermənilərin Azərbaycan hökuməti tərəfindən təhlükədə olması barədə dünyanı təkidlə inandırmağa çalışırdı. Azərbaycan ərazisindəki münaqişədə iştirak etməməsi barədə yanlış məlumatlar verməklə dünya ictimaiyyətini aldadırdı. Öz təcavüzkarlıq planlarını gizlətmək üçün qondarma Dağlıq Qarabağ hakimiyyətindən istifadə edir, Dağlıq Qarabağı müstəqil dövlət kimi Azərbaycanla danışıqlar keçirmək təşəbbüsünü irəli sürürdü. Blokadada olması barədə dünya birliyinə məlumatlar verir, aldığı humanitar yardımı sosial və iqtisadi problemlərə deyil, Azərbaycana qarşı işğal müharibələrinin davam etdirilməsinə sərf edirdi və etməkdədir. Digər tərəfdən Ermənistan Azərbaycanda olan məcburi köçkün və qaçqınların sayı barədə dünya birliyində yanlış fikir yaradırdı. Dağlıq Qarabağın erməni əhalisinin sosial-iqtisadi, mədəni cəhətdən təmin olunmaması barədə dünya birliyində dezinformasiya yaradaraq Dağlıq Qarabağın ərazisinin Ermənistanın iqtisadiyyatı ilə inteqrasiya etməsi ideyasını irəli sürürdü. Hələ münaqişənin başlanğıcında Ermənistan Azərbaycanda etnik azlıqlara qarşı diskriminasiyanın həyata keçirilməsi barədə BMT-nin Baş katibinə

yalan məlumat verməklə, dünya birliyində yanlış fikir yaratmağa cəhd edirdi. Ermənistan təcavüzkar dövlət kimi ittiham olunmasından yayınmaq məqsədilə Azərbaycanın xarici ölkələrdən silah və hərbi sursat alması və münaqişəni qızışdırması barədə BMT-yə məlumatlar verirdi. Türkiyəni problemə müdaxilə etməkdə günahlandırmaqla, öz təcavüzkar siyasətini pərdələyir, Türkiyənin Azərbaycanı müdafiə etməsi müqabilində, Ermənistanın Dağlıq Qarabağ ermənilərini müdafiə etməsinə haqq qazandırırdı.

Bu yarımfəsildə qeyd edilir ki, regionda vəziyyətin gərginləşməsi region dövlətlərini, o cümlədən Türkiyəni, İranı təhlükədə qoyur. Bu təhlükəni aradan qaldırmaq, Azərbaycana qarşı erməni təcavüzünü kəsmək üçün məcburi tədbirlər görmək, erməni silahlı qüvvələrini işğal edilmiş Azərbaycan ərazilərindən çıxarmaq, dövlətlərin suverenliyinə hörmət prinsipini təsdiq etmək məqsədilə Türkiyə Ermənistanın təcavüzünə son qoymaq üçün birinci növbədə separatçı qüvvələrin maddi-texniki cəhətdən təchiz olunmasının qarşısının alınmasını, təcavüzkara qarşı sanksiyalar tətbiq edilməsini, işğal edilmiş Azərbaycan ərazilərindən erməni silahlı qüvvələrinin çıxarılmasını birmənalı surətdə tələb edən dövlətdir. İran İslam Respublikası münaqişənin ilkin mərhələsində onun sərhəddinin yaxınlığında baş verən hadisələrin sülh və təhlükəsizliyi hədələdiyinə əsaslanaraq, Ermənistanı təcavüzü dayandırmağa, işğal etdiyi ərazilərdən çıxmağa çağırmış, İslam dövlətlərinin diqqətini regionda suveren müsəlman dövlətinə qarşı olan böhrana cəlb etmişdi. Lakin İİR Ermənistanın Azərbaycana qarşı təcavüzünü bildirsə də, İslam Əməkdaşlıq Təşkilatında birmənalı olaraq Azərbaycanı dəstəkləsə də, hazırda onun Ermənistanla siyasi və iqtisadi əlaqələri yüksək səviyyədə inkişaf etdirməsi münaqişənin nizama salınmasına mənfi təsir edən amillərdən biridir. Həm region dövləti, həm də BMT Təhlükəsizlik Şurasının daimi üzvü olan Rusiya Federasiyası münaqişənin ilkin mərhələsində Ermənistanın təcavüzündən, Cənubi Qafqazda qeyri-sabitlikdən istifadə edərək keçmiş sovet respublikalarında əvvəlki hərbi siyasi nüfuzunu bərpa etməyə çalışmış, 1993-1995-ci illərdə dəyəri 1 milyard dollardan çox olan silah və hərbi sursatı gizli, qeyri-qanuni olaraq Ermənistana göndərməsi ilə münaqişəni gərginləşdirmiş və Azərbaycan ərazilərini işğal etmək üçün Ermənistana kömək etmişdi. ABŞ Dağlıq Qarabağı müstəqil dövlət kimi tanımadığını, Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini, Dağlıq Qarabağın statusunun isə tərəflər arasında danışıqlar nəticəsində müəyyənləşdirilməsi fikrini bildirsə də, Ermənistanı və qondarma Dağlıq Qarabağ Respublikasını maliyyələşdirir.

Beynəlxalq təşkilatlardan İslam Əməkdaşlıq Təşkilatı Ermənistanı birmənalı olaraq təcavüzkar dövlət adlandırdı. NATO, İqtisadi Əməkdaşlıq Təşkilatı, Avropa İttifaqı, Avropa Şurası Azərbaycan Respublikasının suverenliyini və ərazi bütövlüyünü təsdiq edərək, dünya birliyini işğal edilmiş ərazilərdən işğalçı qüvvələri çıxarmağa çağırdılar.

**"Təhlükəsizlik Şurasının Ermənistanı təcavüzkar dövlət kimi müəyyən etməsinə əsas verən amillər"** adlanan yarımfəsildə göstərilir ki, BMT Təhlükəsizlik Şurası Dağlıq Qarabağ münaqişəsi barədə 4 qətnamə (822, 853, 874, 884 saylı qətnamələr) qəbul etmişdir. Qətnamələrdə işğal edilmiş ərazilərdən bütün işğalçı qüvvələrin təcili çıxarılması göstərilmişdir. Lakin, işğalçının Ermənistan olduğu qeyd olunmamışdır. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin indiyə qədər həll edilməməsinin səbəbi BMT Təhlükəsizlik Şurasının, eləcə də Minsk qrupu həmsədrlərinin Ermənistanı və Azərbaycanı öz siyasətinə görə fərqləndirməməsidir, başqa sözlə, təcavüzkar dövlətin müəyyənləşdirilməməsidir. Qətnamələrdə sanksiyanın göstərilməsi vacib məsələdir. Beynəlxalq hüququn nəzəri və təcrübi əsaslarına görə, həmçinin mövcud beynəlxalq hüquq qaydalarına, o cümlədən BMT Baş Məclisinin 1974-cü il 3314 saylı "Təcavüzün müəyyən edilməsi barədə" qətnaməsinə əsasən Azərbaycanın ərazi bütövlüyünü pozan təcavüzkar dövlət kimi Ermənistana qarşı Təhlükəsizlik Şurasının siyasi və iqtisadi sanksiyalar tətbiq etməsinə aşağıdakı faktlar əsas verir: Ermənistan Ali Sovetinin Dağlıq Qarabağı Ermənistana birləşdirməsi barədə qərar qəbul etməsi; Ermənistan parlamentinin Dağlıq Qarabağın iqtisadi inkişaf planları daxil olmaqla, Ermənistanın iqtisadi inkişafı barədə dövlət proqramı qəbul etməsi; separatçıların Ermənistan parlamentinin üzvü olması; Ermənistanda separatçıların və terrorçuların hakimiyyətdə olması; Ermənistan silahlı qüvvələrinin işğalda birbaşa iştirakı; Ermənistanın azərbaycanlıların soyqırımını həyata keçirməsi; Ermənistanın hərbi əsir və girovları öz ərazisində saxlaması; Azərbaycana qarşı terror aktları həyata keçirməsi; terror yolu ilə etnik təmizləmə siyasətini həyata keçirilməsi; işğal edilən ərazilərə erməni əhalinin köçürülməsi; Ermənistanın işğal etdiyi ərazilərdə olan təbii ehtiyatları istismar etməsi; yer adlarını, toponimləri erməni adları ilə əvəz etməsi, abidələri süni surətdə erməniləşdirməsi; Ermənistanın "yandırılmış torpaq" taktikası və işğal etdiyi ərazilərin əksər hissəsini minalandırması; qondarma Dağlıq Qarabağ Respublikasının hətta Ermənistan tərəfindən tanınmaması, onun nəzarəti, idarəçiliyi altında olması.

**“Ermənistanın Azərbaycana hərbi təcavüzü: hərbi əsir və girovların hüquqlarının pozulması”** adlanan yarımfəsildə nəzərə çatdırılır ki, insan hüquqlarının müdafiəsi beynəlxalq münaqişələrin nizama salınması prosesinə təsir edən əsas amillərdən biridir. Ermənistanın Azərbaycana qarşı törətdiyi cinayətlərin hüquqi mühakiməsinin həyata keçirilməsi məqsədilə Xüsusi Tribunalın yaradılması vacibdir. İnsan hüquqlarının müdafiəsi Təhlükəsizlik Şurasının Beynəlxalq Məhkəmə, ixtisaslaşmış qurumlar, o cümlədən İnsan hüquqları Şurası və digər aidiyyəti olan qurumlarla əməkdaşlığı istiqamətində həyata keçirilə bilər.

**“Təhlükəsizlik Şurasının beynəlxalq terrorizmə qarşı mübarizə tədbirləri və qlobal təhlükəli erməni terrorizmi”** adlanan yarımfəsildə göstərilir ki, Ermənistan hökumət səviyyəsində terrorçuluğu həyata keçirən bir dövlətdir. Azərbaycanın işğal edilmiş ərazilərində yaradılmış qondarma qurumda rəhbər vəzifələrdə işləmiş, Xankəndi və digər yaşayış məntəqələrindən 1 milyondan çox azərbaycanlının kütləvi surətdə öz doğma yurdlarından məcburi qovulması və minlərlə insanın qətlə yetirilməsinə şərait yaradan, erməni quldur dəstələrini zəruri vəsaitlərlə təmin edən R.Koçaryan (1999-2007-ci illər), indi isə S.Sarkisyan hökuməti azərbaycanlılara qarşı kütləvi terror aksiyalarını Ermənistanda dövlət səviyyəsində davam etdirir. Buna görə də bu təcavüzkar dövlət BMT Nizamnaməsinin VII fəslinə, BMT-nin beynəlxalq terrorizmlə mübarizə barədə qəbul etdiyi qərar və qətnamələrə müvafiq olaraq cəzalandırılmalı, beynəlxalq sülh və təhlükəsizliyi, qlobal sabitliyi, sosial-iqtisadi inkişafı pozan, beynəlxalq terrorizmin tərkib hissəsi olan erməni terrorizmi məhv edilməlidir.

**“Qaçqın və məcburi köçkün probleminin həlli üçün BMT-nin ixtisaslaşmış qurumlarının fəaliyyətinin gücləndirilməsi perspektivləri”** adlanan yarımfəsildə göstərilir ki, qaçqın və məcburi köçkünlərin problemləri ilə məşğul olan BMT-nin Qaçqınların işi üzrə Ali Komissarlığı yalnız humanitar yardım göstərməklə kifayətlənməməli, həm də qaçqın və məcburi köçkünlərin təhlükəsiz şəraitdə öz vətənlərinə qayıtmaları üçün çalışmalıdır. Qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həll edilməsində əsas vəzifə ixtisaslaşmış qurumların üzərinə düşsə də, BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrə müvafiq olaraq, Təhlükəsizlik Şurası, Baş Məclis qaçqın və məcburi köçkünlərin təhlükəsiz şəraitdə öz vətənlərinə qayıtmasını Ermənistandan tələb etməlidir. Ekoloji tənəzzül münaqişələrin kəskinləşməsinə aparıb çıxarır. Bununla əlaqədar olaraq ətraf mühit sahəsində dövlətlərin əməkdaşlığı münaqişələrin nizama salınmasına xidmət edə bilər. Ətraf mühitin mühafizəsi barədə prinsipləri pozan

dövlətlər məsuliyyətə cəlb edilməlidirlər. Bu məqsədlə Ermənistan barədə Beynəlxalq Ekologiya Məhkəməsinin yaradılması zəruridir, yaxud BMT sanksiyalar tətbiq etmək səlahiyyətləri daxilində, beynəlxalq hüquq prinsiplərinə əsaslanaraq, Azərbaycana vurulan zərərin əvəzinin ödənilməsi və ekoloji təhlükəsizlik prinsiplərini pozan Ermənistanın məsuliyyətə cəlb edilməsi üzrə komissiya yaratmalıdır. Zərərin əvəzinin ödənilməsi məsuliyyətinin tətbiq edilməsi müsbət nəticələr verə bilər.

**“Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasında BMT, ATƏT və münaqişə tərəflərinin əməkdaşlığı və nəticələri”**adlanan yarımfəsildə araşdırmalardan belə nəticə əldə edilmişdir ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll edilməməsinə təsir edən əsas amillər BMT-nin qəbul etdiyi qətnamə və qərarların reallaşması mexanizminin olmaması, Nizamnaməni pozan dövlətə qarşı sanksiyalar tətbiq edilməməsi, ATƏT-in Minsk qrupu həmsədrləri olan ABŞ, Rusiya və Fransanın Ermənistanın xeyrinə irəli sürdüyü təkliflər, Ermənistan tərəfindən atəşkəsin pozulması və ATƏT-in atəşkəsə nəzarətdə passiv müşahidəçi kimi çıxış etməsidir. BMT Təhlükəsizlik Şurası Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasını ATƏT-in Minsk qrupuna həvalə etsə də bu, nəticə vermədi. Nizamnamənin 52-ci maddəsinə görə, yerli mübahisələrin həll olunması Təhlükəsizlik Şurasına verilməzdən əvvəl regional orqanlar tərəfindən tədbirlər görülə bilər. Lakin bu cür saziş və ya orqanlar və ya onların fəaliyyəti BMT-nin məqsəd və prinsiplərinə uyğun olmalıdır. Lakin ATƏT-in “ikili standart” siyasəti yürütməsi, xüsusilə də 2008-ci il mart ayında Baş Məclisin Azərbaycanın ərazi bütövlüyünün tanınması barədə qətnaməsinə səsvermədə Minsk qrupu həmsədrlərinin əleyhinə səs verməsi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması problemini bu regional təşkilatın səlahiyyətlərindən alıb, Baş Məclisin, müzakirəsinə verilməsini zəruri edir. BMT Baş Məclisinin 1950-ci ildə qəbul etdiyi “Sülh naminə əməkdaşlıq” qətnaməsi buna hüquqi əsas verir.

Dağlıq Qarabağ münaqişəsi üzrə ATƏT-in Minsk qrupunun həmsədrləri, xüsusən də Rusiya və ABŞ məsuliyyətdən yayınmaq üçün öz geostrateji maraqlarını Minsk qrupu adı altında həyata keçirməyə çalışır və Minsk qrupunun müstəqil qurum kimi fəaliyyət göstərməsinə mane olurlar. Münaqişənin indiyə qədər həll edilməməsinin səbəbi Təhlükəsizlik Şurasının təcavüzkar siyasət yeridən dövləti və özünümüdafiə hüququ olan dövləti müəyyənləşdirməməsidir. ABŞ Konqresinin “DQR” separatçılarına inkişaf üçün yardım ayırması ABŞ-ın, eləcə də Cənubi Qafqazda

Ermənistandan öz forpostu kimi istifadə edən və münaqişənin ilkin mərhələsindən ona dəstək duran Rusiyanın, ermənipərəst siyasət yeridən Fransanın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini nizamasalmada ədalətli mövqe tutacaqları inandırıcı deyil.

Həmin yarımfəsildə regional münaqişələrin nizama salınması üçün BMT-də aparılan islahatlar barədə təkliflər, qəbul edilən qətnamələr ümumiləşdirilərək, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yolları barədə aşağıdakı tövsiyələr verilmişdir: İndiyə qədər heç bir səmərə verməyən ATƏT-in vasitəçilik missiyasından imtina edilməlidir. Münaqişə tərəfləri BMT-nin vasitəçilik missiyasını dəstəkləməlidirlər. Beynəlxalq birlik problemi düzgün qiymətləndirmək üçün münaqişənin tarixi kökləri, əsil səbəbləri barədə xəbərdar olmalıdır. Nizamnamənin VIII fəslinə müvafiq olaraq regional, yaxud subregional təşkilatlarla əməkdaşlığın əhəmiyyətini nəzərə alaraq, GUAM təşkilatı üzvlərinin oxşar problemlər yaşamasına əsaslanaraq, regionda münaqişənin nizama salınmasında bu təşkilatın BMT ilə əməkdaşlığının müsbət nəticə verə biləcəyi barədə fikir söyləmək olar. Baş Məclis Ermənistanı təcavüzkar siyasətdən əl çəkməyə çağırmalıdır. Ermənistan BMT-yə müharibənin kəsilməsi barədə, hər bir dövlətin suverenliyinə, ərazi bütövlüyünə, siyasi müstəqilliyinə hörmət, beynəlxalq tanınmış sərhədlərin təhlükəsizliyi barədə sənədlər təqdim etməlidir. Təhlükəsizlik Şurası təcavüzkar tərəfi və özünümüdafiə hüququ olan tərəfi müəyyənləşdirməlidir, qəbul etdiyi qətnamələri qısa müddətdə həyata keçirməlidir. Təcavüzkar dövlətin işğal etdiyi ərazilərdən çıxarılması tələb edilməlidir, əgər tələb yerinə yetirilməzsə, Təhlükəsizlik Şurası beynəlxalq xarakterli iqtisadi sanksiyalar qəbul etməli, nəticə verməzsə, siyasi sanksiyalar tətbiq etməlidir. Təhlükəsizlik Şurası həmçinin muzdluluğu pisləməli, beynəlxalq sülh və təhlükəsizliyi pozan, Ermənistana silah satan dövlətlərə qarşı sanksiyalar tətbiq etməlidir. Baş katib Təhlükəsizlik Şurası ilə məsləhətləşərək sanksiyalara nəzarət etməli, Təhlükəsizlik Şurasını bu barədə məlumatlandırmalıdır. Beynəlxalq hüquq normaları və adətlərinə tabe olmadığı halda təcavüzkar Ermənistan dövləti BMT Nizamnaməsinin 6-cı maddəsinə müvafiq olaraq BMT-dən kənarlaşdırılmalıdır. Təhlükəsizlik Şurası Ermənistanın beynəlxalq humanitar hüquq normalarına əməl etməsinə nəzarət etməli, təhqiqat aparmalı, tədbirlər görməlidir. Ermənistanın işğal etdiyi ərazilərə erməni əhalini köçürməsi, təbii ehtiyatları istismarı, toponimləri dəyişdirmə siyasətinə son qoyulmalıdır. BMT-nin beynəlxalq terrorizmlə mübarizə barədə qəbul etdiyi qətnamələrə müvafiq olaraq, beynəlxalq terrorizmin tərkib hissəsi olan erməni terrorizmi

məhv edilməlidir. Təhlükəsizlik Şurası Ermənistanın Azərbaycana vurduğu iqtisadi, maliyyə zərərinin əvəzinin ödənilməsini tələb edə bilər. Ermənilərin həyata keçirdiyi "yandırılımış torpaq" taktikasının nəticəsində məhv olmuş ərazilər bərpa edilməli, Ermənistan Azərbaycanın iqtisadiyyatına, mədəniyyətinə, təbii sərvətlərinə və s. vurduğu zərərin əvəzində təzminat verməlidir. Sülh və təhlükəsizlik iqtisadi inkişafla vəhdət təşkil etdiyi üçün sosial-iqtisadi proqramlar həyata keçirən, kreditlər verən ixtisaslaşmış qurumların fəaliyyətinin gücləndirilməsi məqsədəuyğundur. Beynəlxalq hüquq normalarının Beynəlxalq Məhkəmə vasitəsilə həyata keçirilməsi beynəlxalq münasibətlərin tarazlaşdırılmasında mühüm amildir. Təhlükəsizlik Şurası təcavüz aktını müəyyənləşdirmədikdə, Beynəlxalq Məhkəmənin bu hüququ həyata keçirməsi səlahiyyətinin olması regional münaqişələrin nizama salınması istiqamətində qurumun səmərəli fəaliyyətinə kömək edə bilər. BMT Təhlükəsizlik Şurasının son zamanlar qəbul etdiyi qətnamələrə istinad edərək, azərbaycanlıların soyqırımı barədə xüsusi tribunal yaradılmalı, cinayətkarlar cəzalandırılmalıdırlar. Oxşar faciələrə yol verilməməsi üçün Xocalı soyqırımında və digər faciələrdə günahkar olanlar məsuliyyətə cəlb edilməlidirlər. Əsirlər barədə hüquqi məsələlərin qaydaya salınması üçün Beynəlxalq Məhkəmə Komissiyası yaradılmalı, Beynəlxalq Məhkəmə İnsan Hüquqları Şurası, Kompensasiya Komissiyası ilə əməkdaşlıq etməlidir. Hərbi əsir və girovlar azad edilməli, İnsan Hüquqları Şurası Ermənistan tərəfindən pozulan insan hüquqları barədə təhqiqat aparmalı, cinayətkarlar öz cəzasını almalıdırlar. İnsan hüquqlarının pozulması ilə qaçqın və məcburi köçkün axınının yaranması arasında sıx bağlılıq olduğu üçün Təhlükəsizlik Şurası ilə yanaşı İnsan Hüquqları Şurası qaçqın və məcburi köçkünlərin vəziyyəti ilə maraqlanmalı, qəbul etdiyi qətnamələrdə onların qeyd-şərtsiz öz vətənlərinə qayıtmasını tələb etməlidir. Ərazilərin minalardan təmizlənməsi, qaçqın və məcburi köçkünlərin öz yurdlarına təhlükəsiz qayıtması üçün ixtisaslaşmış qurumlar qeyri-hökumət təşkilatları ilə əməkdaşlığı gücləndirməlidirlər. İnsan hüquqları Şurası UNİCEF-lə əməkdaşlıqda uşaqların vəziyyəti ilə maraqlanmalı, öz qətnamələrində Ermənistanın siyasətini pisləməli, uşaqların hüquqlarının bərpa olunmasını tələb etməlidir. UNESCO Ermənistanın Azərbaycanın mədəniyyətinə, elminə, təhsilinə və s. vurduğu zərər barədə təhqiqat aparmalıdır. Ermənistan tərəfindən dağıdılan, oğurlanan mədəni dəyərlərin əvəzi ödənilməli, oğurlananlar geri qaytarılmalıdır.

**V Fəsil"Abxaziya və Cənubi Osetiya münaqişələrinin nizamlanmasında BMT-nin mövqeyi"** adlanır və 3 yarımfəsildən ibarətdir.

**“Gürcüstanda olan münaqişələrin xüsusiyyətləri”** adlanan yarımfəsildə Gürcüstanda olan münaqişələrin xüsusiyyətləri təhlil edilmiş və göstərilmişdir ki, Abxaziya və Cənubi Osetiya münaqişələri digər potensial münaqişələrdən öz xüsusiyyətlərinə görə fərqlənir. Bu iki münaqişə beynəlxalq münaqişəyə çevrilmiş, münaqişənin başlanğıcından Abxaziya problemi, 2008-ci il avqust ayında Rusiyanın Gürcüstanın daxili işlərinə müdaxiləsi nəticəsində baş vermiş 15 günlük müharibədən sonra isə Cənubi Osetiya problemi BMT çərçivəsində dəfələrlə müzakirə edilmişdir.

**“Abxaziya və Cənubi Osetiya münaqişələri: səbəb və nəticələri”** adlanan yarımfəsildə göstərilir ki, Abxaziya və Cənubi Osetiya münaqişələrinin başlıca səbəbi Rusiyanın Gürcüstanın daxili işlərinə müdaxilə etməsidir və nəticədə minlərlə insan həlak oldu, şikəst edildi, yüzlərlə insan itkin düşdü, girov götürüldü, məcburi köçkün vəziyyətinə düşdü. Gürcüstanın iqtisadiyyatına böyük miqdarda zərər dəydi. Hazırda Rusiya hər iki separatçı qurumun müstəqilliyini tanıyır.

**“Abxaziya və Cənubi Osetiya münaqişələrinin BMT çərçivəsində həlli yolları”** adlanan yarımfəsildə Abxaziya və Cənubi Osetiya münaqişələrinin nizama salınmasına cəhd edərkən BMT-nin fəaliyyətində olan nöqsanlar işıqlandırılmış və göstərilmişdir ki, BMT-nin əsas səhvi onda idi ki, Cənubi Qafqazda bu və ya digər formada öz nüfuzunu bərpa etməyə çalışan Rusiyanın vasitəçiliyinə, əksəriyyəti Rusiya Federasiyası vətəndaşları olan MDB kollektiv təhlükəsizlik qüvvələrinin Abxaziyaya gətirilməsinə etiraz etməmişdi, əksinə buna şərait yaratmışdı. Abxaziya və Cənubi Osetiya münaqişələrini nizama salmaq üçün BMT öz səlahiyyətlərindən istifadə edərək aşağıdakı addımları ata bilər: Təhlükəsizlik Şurası yalnız qətnamələri qəbul etməklə kifayətlənməməli, bu qətnamələrin həyata keçirilməsinə nəzarət etməli, beynəlxalq hüquq normaları çərçivəsində tədbirlər görməlidir. Hərbi əsirlər və girovların dəyişdirilməsində BMT-nin qurumları, qeyri-hökumət təşkilatları fəal iştirak etməlidirlər. Qaçqın və məcburi köçkün probleminin həlli istiqamətində Qaçqınların İşi üzrə Ali Komissarlığın üzərinə mühüm vəzifə düşür. Qaçqın problemi və humanitar məsələlərin həlli üçün münaqişə zonasına mütəxəssislər cəlb edilməlidirlər. Qaçqınların repatriasiyasına mane olan minalanmış ərazilər tam təmizlənməlidir. İqtisadi vəziyyəti bərpa etmək üçün humanitar yardım gücləndirilməlidir. Regionda beynəlxalq hüquq normalarına əməl edilməsinə, separatçıların tərksilah edilməsinə, Rusiya hərbi kontingentinin tam çıxarılmasına nəzarət edilməlidir. Özünü suveren “respublika” elan edən Abxaziyanın və Cənubi Osetiyanın BMT-nin gərgin sülhyaratma cəhdlərini rədd etməsinə

qarşı beynəlxalq hüquq normaları tətbiq edilməlidir. Cinayətkarları cəzalandırmaq üçün xüsusi tribunal yaradılmalı, cəzasızlığa son qoyulmalıdır. BMT Gürcüstanda missiyasını bərpa etməli, Abxaziya və Cənubi Osetiya münaqişələrinin nizama salınmasına ciddi yanaşmalıdır. Regional təşkilatlar BMT ilə əməkdaşlıq edərsə, təhlükəsizlik qüvvələri BMT-nin bağladığı sazişə uyğun olaraq sülh əməliyyatında iştirak edərkən Nizamnamənin 54-cü maddəsinə müvafiq olaraq regional orqanlar tərəfindən görülən və ya planlaşdırılan tədbirlər barədə Təhlükəsizlik Şurasına hər bir zaman tam məlumat verməli, beynəlxalq müşahidəçilər atəşkəs barədə sazişin icrasına və regional sülhməramlılar ilə əməkdaşlığa nəzarət etməlidirlər. BMT-nin əsas orqanları ilə sıx əməkdaşlıqda ixtisaslaşmış qurumların (Beynəlxalq Valyuta Fondu, Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı, UNİCEF, UNESCO və b.), qeyri-hökumət təşkilatlarının münaqişə zonasında fəaliyyəti gücləndirilməlidir. Münaqişənin qarşısını almaq üçün, hər şeydən əvvəl qanunsuz silah satışının qarşısını almaq, Rusiyanı növbəti cinayətlərdən çəkindirmək lazımdır. Əslində abxaz və osetin separatçıları müdafiə edən və faktiki olaraq münaqişə tərəfi olan Rusiya formal olaraq vasitəçilik missiyasını öz üzərinə götürmüş və münaqişənin nizama salınması üçün praktik olaraq heç bir addım atmamışdır. BMT Nizamnaməsinin VII fəslinə müvafiq olaraq hər hansı bir dövlət digər dövlətin daxili və xarici siyasətinə birbaşa, yaxud dolayısı ilə mane olursa, məcburi tədbirlər görülə bilər. Bu nöqteyi-nəzərdən Rusiyanın digər bir dövlətin daxili yurisdiksiyasında olan məsələlərə müdaxilə etməsinə dünya birliyi öz kəskin fikrini bildirməlidir.

**Nəticədə** aparılan araşdırmalar ümumiləşdirilərək, regional münaqişələrin nizama salınması üçün BMT-də hansı islahatların aparılması barədə irəli sürülən təkliflərdən nəticələr əldə edilmiş, bu barədə tövsiyələr verilmişdir.

Müəllif belə qənaətə gəlmişdir ki, II Dünya müharibəsindən sonra sülh və təhlükəsizliyin qorunması, əməkdaşlığın qurulub inkişaf etdirilməsi ehtiyacından yaradılmış BMT-nin universal təşkilat kimi qalması və işinin təkmilləşdirilməsi yeni qlobal problemlərin ortaya çıxdığı müasir dövrdə vacibdir. Ona görə də Təşkilatda səmərəli, xüsusən də beynəlxalq və regional münaqişələrin nizama salınmasına müsbət təsir edən islahatlar aparılmasına ehtiyac vardır. Təhlükəsizlik Şurasının daimi üzvlərinin veto hüququnun ləğv edilməsi və Baş Məclisin səlahiyyətlərinin artırılması şərti ilə BMT yalnız dövlətlərarası deyil, həm də beynəlxalq xarakterli təşkilat olmalı, ayrı-ayrı milli dövlətlərin suverenliyi saxlanılmaqla, onların hakimiyyəti üzərində özünə yer tutmalı və beynəlxalq münasibətlərdə sərbəst rol oynamalıdır.

**Dissertasiyanın məzmunu müəllif tərəfindən nəşr edilmiş aşağıdakı elmi işlərdə öz əksini tapmışdır:**

1.İraq problemi və BMT - Şərq-Qərb:sivilizasiyaların dialoqu // Elmi-nəzəri jurnal, Bakı, 2006, N(5)3-4, s.116-126.

2. Terrorçu Ermənistana qarşı beynəlxalq konvensiyaların tətbiqi // "Tarix və onun problemləri" jurnalı, Bakı, 2006, N4, s.225-230.

3. Afrika Birliyi ölkələrinin sülh və təhlükəsizliyini müdafiədə BMT-nin rolu // "Elmi əsərlər", Bakı, 2007, N1,s.63-72.

4. BMT-də islahatların perspektivləri // AMEA-nın Xəbərləri, Bakı, 2007, N8, s.333-343.

5. Gürcüstanda olan münaqişələrin xüsusiyyətləri // Sosial-siyasi problemlər, Bakı, 2008, N2-3, s.85-89.

6. BMT-də islahatlar və TŞ-nın daimi üzvlərinin mövqeyi // Bakı Universitetinin Xəbərləri, Bakı, 2008, N1, s.141-147.

7. Reforma OON:Problemıı i perspektivı // Odeskiy derjavniy ekonomiçniy universitet, naukoviy vestnik,Odesa 2008, N15, s.202-209.

8. Abxaziya problemi və BMT // AMEA-nın Xəbərləri, Bakı, 2008, N9, s.314-326.

9. BMT Təhlükəsizlik Şurasının daimi üzvləri arasında bəzi ziddiyyətlər // Beynəlxalq münasibətlərin aktual problemləri. Məqalələr toplusu. Bakı, 2006, N1,s. 85-100.

10. Abxaziya münaqişəsi: səbəblər və nəticələr // Tarix və onun problemləri, Bakı, 2008, N3, s.153-158.

11. Ermənistanın Azərbaycana silahlı təcavüzü: hərbi əsir və girovların hüquqlarının pozulması // Sosial-siyasi problemlər, Bakı, 2009, N1, s.74-83.

12. BMT-nin yaradılmasında tarixi zərurət və məqsəd // Bakı Universitetinin Xəbərləri,Bakı,2009, N1, s.160-165.

13. The aggressive acts and the principle of the territorial integrity of Armenia against Azerbaijan // Azerbaijan and Azerbaijanis Азербайджан и Азербайджанцы, Baku, 2009, vol. 103-104 N1-2, p.162-168.

14. BMT-nin qətnamələri və Ermənistanın dekonstruktiv mövqeyi // Sosial-siyasi problemlər, Bakı,2009, N2, s.38-48.

15. Ermənistan-Azərbaycan münaqişəsi nəticəsində yaranmış qaçqın probleminin həlli üçün BMT-nin fəaliyyətinin gücləndirilməsi perspektivləri // AMEA-nın Xəbərləri, Bakı, 2009, N11, s.245-255.

16. Regional münaqişələrin nizama salınmasında BMT-nin regional və subregional təşkilatlarla əməkdaşlığı // Tarix və onun problemləri,Bakı,2009, N3, Xüsusi Buraxılış, s.397-401.

17. Beynəlxalq sülh və təhlükəsizliyin müdafiəsində BMT TŞ-nın rolu // Elmi Əsərlər, Bakı, 2009, N1-2(13), s.121-127.

18. Beynəlxalq terrorizmin tərkib hissəsi olan erməni terrorizmi və onunla mübarizə məsələləri // Pedaqoji Universitetin Xəbərləri, Bakı, 2009, N6, s.129-133; // AMEA-nın Xəbərləri, 2010, N1-2, s.187-192.

19. Ermənistan-Azərbaycan münaqişəsinin BMT çərçivəsində həlli yolları // Bakı Universitetinin Xəbərləri, Bakı,2009, N4, s.171-178.

20. BMT-nin sülh potensialının möhkəmləndirilməsi prinsipləri // AMEA-nın Xəbərləri, Bakı, 2009, N12, s.200-209.

21. Армянские преступления и предложения по усилению активизации ООН в регулировании конфликта между Арменией и Азербайджаном // Azerbaijan and Azerbaijanis Азербайджан и Азербайджанцы, Baku, 2010, vol. 105-106 N1-2, p.166-170.

22. Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasətinin formaları // Pedaqoji Universitetin Xəbərləri, Bakı, 2010, N3, s.168-172.

23. The solution ways in UN frame of the regional conflicts in the South Caucasus / "Qloballaşma prosesində Qafqaz və Mərkəzi Asiya" İqtisadiyyat və beynəlxalq münasibətlər III Beynəlxalq konqresin tezisləri, 15-17 oktyabr 2010-cu il, Bakı, Azərbaycan, p.278-279, Qafqaz Universiteti.

24. Ermənistanın "dezinformasiya müharibəsi" nin münaqişənin nizama salınmasına təsiri / Gənc Alimlərin I Respublika İnnovativ İdeya Yarmarkası çərçivəsində keçirilən "Gənc alim və tədqiqatçıların innovativ inkişafı üçün intellektual potensialın stimullaşdırılması və təkrar istehsalı" adlı konfransın materialları, 18-23 noyabr 2010-cu il, Bakı, s. 282-285, AMEA.

25. Ataşkəsdən sonrakı dövrdə BMT ilə əməkdaşlıq // Bakı Universitetinin Xəbərləri,Bakı,2010, N3, s.192-197.

26. The solution ways in UN frame of the regional conflicts in the South Caucasus / "Qarabağ dünən, bu gün və sabah" 10-cu elmi-əməli konfransının materialları, Bakı, 2011, s.172-179, QAT.

27. Перспективы усиления активизации ООН в урегулирование конфликтов на Южном Кавказе / Актуальные проблемы гуманитарных и социальных исследований. Материалы VIII Региональной научной конференции молодых учёных Сибири в области гуманитарных и социальных наук, 22-24 ноября 2010г., Новосибирск, с.202-205 http://www.philosophy.nsc.ru/ youngcons/ mol-archive.htm

28. Пути усиления мирового потенциала ООН по урегулированию региональных конфликтов / Актуальные проблемы гуманитарных и социальных исследований. Материалы IXРегиональной научной конференции молодых учёных Сибири в области гуманитарных и социальных наук, 22-24 ноября 2011г., Новосибирск,с.44-47.http://www.philosophy.nsc.ru/youngcons/mol-archive.htm

29. Qlobal təhlükələr və BMT-də islahatlar // Bakı Universitetinin Xəbərləri, Sosial-siyasi elmlər seriyası, Bakı, 2011, N3, s.17-22.

30. The causes and results of the Armenia-Azerbaijan conflict // Azerbaijan and Azerbaijanis Азербайджан и Азербайджанцы, Baku, 2012, N3-4, p.23-26.

31. Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınması ilə bağlı region dövlətlərinin mövqeyi / "Ulu öndər Heydər Əliyevin irsi və politologiyanın aktual problemləri" adlı Ümumrespublika elmi-praktik konfransının materialları, Bakı, 2012, s.158-161, AMEA, Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu.

32. BMT-nin qurumları arasında əməkdaşlığın gücləndirilməsi perspektivləri // AMEA-nın Xəbərləri, Bakı, 2012, N1, s.353-361.

33. The solution ways in UN frame of the regional conflicts being in the South Caucasus: recommendations and proposals // Національний педагогічний університет імені М.П.Драгоманова, Гілея Науковый вісник, Киів 2012, Випуск 64(№9) с.581-584.

34. Regional münaqişələrin nizama salınmasında Beynəlxalq Məhkəmənin rolunun artırılması perspektivləri // Bakı Universitetinin Xəbərləri, Sosial-siyasi elmlər seriyası, Bakı,2012, N2, s.5-11.

35. Beynəlxalq münasibətlərin müasir problemləri və BMT. Monoqrafiya. Bakı, 2012, Təknur, 186 s.

36.Ответственность государств за нарушении экологической безопасности / Актуальные проблемы гуманитарных и социальных исследований. Материалы XРегиональной научной конференции молодых учёных Сибири в области гуманитарных и социальных наук, 22-24 ноября 2012г., Новосибирск,с.247-250. http://www.philosophy.nsc.ru/youngcons/mol-archive.htm

37. Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınmasında Təhlükəsizlik Şurasının rolu // Azərbaycan Milli Elmlər Akademiyasının Məruzələri, LXVIII cild, N3, 2012, s.152-159.

38. Проблемы повышения сотрудничества главных органов ООН по урегулированию региональных конфликтов / Центр научной мыс-

ли. Зажги свою звезду. Материалы V Международной научно-практической конференции, 26 ноября 2012г., Москва,с.121-125.

39. Geopolitical confrontation between the members with veto right of the Security Council and the problems of putting in order of the regional conflicts // Національний педагогічний університет імені М.П.Драгоманова, Гілея Науковый вісник, Випуск 77(№10), Киів 2013, с.318-320.

40. Пути восстановления мира и стабильности на Южном Кавказе / Актуальные проблемы гуманитарных и социальных исследований. Материалы XI Региональной научной конференции молодых учёных Сибири в области гуманитарных и социальных наук, 22-24 ноября 2013г., Новосибирск, с.247-250
http://www.philosophy.nsc.ru/ youngcons/mol-archive.htm

41. Qloballaşma prosesində insan haqları və demokratikləşmə problemləri // Bakı Universitetinin Xəbərləri, Sosial-siyasi elmlər seriyası, Bakı,2013, N2, s.142-148.

42. Qloballaşmanın ümumdünya təsisatları və Azərbaycan Respublikasının Bretton-Vuds təşkilatları ilə əməkdaşlığı / Ulu öndər Heydər Əliyevin anadan olmasının 90-cı ildönümünə həsr edilmiş beynəlxalq elmi-praktik konfransın materialları, Bakı, 06 may 2013-cü il, s.177-182, Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu "Heydər Əliyev məktəbi".

43. Importance of the UN in the regulation of the international relations and the offers about reforms // Національний педагогічний університет імені М.П.Драгоманова, Гілея Науковый вісник, Випуск 79(№12), Киів 2013, с.316-318.

44. Ermenistan'ın Azerbaycan'a Silahlı Saldırı: Uluslararası Humanitar Hakların Pozulması Meseleleri // Turkish Studies - International Periodical For The Languages, Literature and History of Turkish or Turkic. Volume 9/5 Spring 2014, p.643-653, Ankara-Turkey.www.turkishstudies.net
Doi Number :http://dx.doi.org/10.7827/TurkishStudies.6822

45. ABŞ-ın birqütblü dünya yaratmaq cəhdləri: mülahizələr // AMEA-nın Xəbərləri, Bakı, 2014, N1, s.202-207.

46. Analysis of the reforms process in UN from prism of the political personalities // International Journal Of Current Life Sciences – Vol.4, Issue,10, pp.8165-8171, October, 2014, http://www.bretj.com

47.Diplomatik portpetlər. Monoqrafiya. Bakı:Avropa. 2015, 120s.

48. Cənubi Qafqaz dünya siyasətində // Azərbaycan Milli Elmlər Akademiyasının Məruzələri, LXX cild, N2, 2014, s.75-80.

49. Ermənistanın Dağlıq Qarabağa qeyri-qanuni köçürmə siyasətinin qarşısının alınmasında Ulu Öndər Heydər Əliyevin və onun davamçısı İlham Əliyevin rolu / Fəlsəfə və Hüquq İnstitutu, Ulu Öndər Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr edilmiş elmi-rpaktik konfransın materialları, Bakı, 8 may 2014, s.103-110.

50. Heydər Əliyev:Azərbaycanın BMT ilə əməkdaşlığı. "Respublika qəzeti", Bakı, 6 dekabr 2015.

51. XX əsrin faciəsi Xocalı soyqırımı - insan hüquqlarının müdafiəsi beynəlxalq münaqişələrin nizama salınması prosesinə təsir edən əsas amildir. "Respublika qəzeti", Bakı, 25 fevral 2016.

52. Perspectives of the reforms in the General Assembly of UN / Львівська Фундація Суспільних Наук.Чинники Розвитку Суспільних Наук у XXI Столітті. Міжнародна науково-практична конференція, Львів, 28-29 жовтня 2016 р, с.88-92.

53. Women in armed conflicts and importance of women's participation in resolving of conflicts / Program ve Bildiri Özetleri Kitabı. Uluslararası Kadın ve Adalet Zirvesi. İstanbul, 25-26 Kasım 2016, s.167-168.

54. Causes and results of the conflicts being in the South Caucasus / Национальний Университет «Одеська Юридична Академия» IV Міжнародна науково-практична конференція Людина, Сусшльство, политика: Актуальнı Виклики Сучасности, Одеса, 24-25 лютого 2017 р, с.52-56.

55. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və BMT / Azərbaycan MEA Rəyasət Heyəti Qafqazşünaslıq İnstitutu. Qafqazşünasların I Beynəlxalq Forumu. Elmi Məruzələr. 2 cilddə. II c., Bakı, 17-18 aprel 2017-ci il,. s.191-197.

56. Azərbaycanlıların və türklərin soyqırımı ilə nəticələnən qlobal təhlükəli erməni terrorları / Azərbaycan MEA Rəyasət Heyəti A.A.Bakıxanov adına Tarix İnstitutu T.C.Atatürk Araştırma Mərkəzi Lənkəran Rayon İcra Hakimiyyəti. XX əsrdə türk-müsəlman xalqlarına qarşı soyqırımları IV Beynəlxalq elmi konfransın materialları. Lənkəran, 22-27 aprel 2017-ci il, s.506-510.

57. The Factors Which Give Ground for the United Nations Security Council to Determine Armenia as an Aggressor State // Review of Armenian Studies. A Biannual Journal of History, Politics, and International Relations. Ankara. Türkiye. N35, 2017, p.91-118.

58. Проблемы восстановления мира и стабильности на Южном Кавказе и ООН / Большой Кавказ: пространство взаимодействия циви-

лизаций и народов Материалы V Международного форума историков-кавказоведов. Ростов-на-Дону, 15–16 ноября 2017, с.217-231.

59. Ermənilər İrana qarşı / AMEA Rəyasət Heyəti Qafqazşünaslıq İnstitutu. Qafqaz böyük sarsıntılar şəraitində: tarixi təcrübə, müasir dövr və perspektivlər Respublika elmi konfransının materialları.Bakı, 4 dekabr 2017.

60. Birinci Dünya savaşi yillarinda Anadolu'da, Kafkasya`da Ermeni silahli örgütlerinin faaliyetleri / Türk Tarih Kurumu, I. Dünya Savaşı'nın Hukuki ve Tarihi Yönleri Uluslararası Sempozyumu (alman-fransız penceresi). İstanbul, 6-9 Aralık 2017, s. 73.

61. Filistin sorunu // Yeni Türkiye. İslam Dünyası özel sayısı-III. Yeni Türkiye Stratejik Araştırma Merkezi. Ankara, Türkiye. N97, Eylül-Ekim 2017, s.619-626.

**Рамила Бахлул гызы Дадашова**

## Необходимость реформ в ООН в контексте решения региональных конфликтов (на примере Южного Кавказа)

## РЕЗЮМЕ

Диссертация состоит из списка сокращений, введения, пяти глав (16 параграфов), заключения и списка использованной литературы.

Во введении обосновывается актуальность темы, анализируется степень ее изученности, определяются объект, предмет, цель и задачи, теоретико-методологические основы, источниковедческая база исследования, показывается научная новизна, теоретическая и практическая значимость, апробация диссертации.

В первой главе - «Вопросы мира и безопасности в ООН, влияние права вето на региональные конфликты» исследуются возможности ООН по защите мира и безопасности, геополитические конфликты между членами Совета Безопасности по правам вето и проблемы, которые возникают во время регулирования региональных конфликтов.

Во второй главе - «Предложения по реформированию ООН» анализируются международные условия, которые обуславливают осуществление реформ в механизме регулирования региональных конфликтов, даётся анализ этих реформ сквозь призму позиций таких видных политических деятелей, как Бутрос Бутрос Гали, Кофи Аннан, Гейдар Алиев, Ильхам Алиев и др.

В третьей главе - «Перспективы реформирования ООН в контексте международных отношений» освещаются реформы в органах ООН, необходимые для регулирования региональных конфликтов и их перспективы, предлагаются пути повышения роли Генеральной Ассамблеи ООН в урегулировании региональных конфликтов.

В четвёртой главе - «Роль ООН в урегулировании армяно-азербайджанского, нагорно-карабахского конфликта» анализируются причины и результаты армяно-азербайджанского, нагорно-карабахского конфликта, влияние «дезинформационной войны» Армении на его урегулирование, обращения в ООН государств-членов, международных организаций по поводу решения этой проблемы, раскрываются факторы, доказывающие, что Армения является государством-агрессором. Реформы в ООН должны быть направлены на

осуществление всех резолюций, принятых Советом Безопасности ООН, в том числе и четырех резолюций СБ ООН по урегулированию армяно-азербайджанского, нагорно-карабахского конфликта - № 822, 853, 874, 884, требующих незамедлительного и полного освобождения оккупированных азербайджанских территорий. Однако эти резолюции не предусматривают санкции против Армении, так как она в этих документах не признается государством-агрессором.

В данной главе исследуются также проблемы грубого нарушения со стороны Армении норм международного права, раскрывается сущность глобально опасного армянского терроризма, анализируются вопросы беженцев и вынужденных переселенцев, сотрудничества ООН, ОБСЕ и сторон конфликта, на основе изучения документов ООН выдвигаются рекомендации по урегулированию армяно-азербайджанского, нагорно-карабахского конфликта в контексте реформ в ООН.

В пятой главе - «Позиции ООН в урегулировании грузино-абхазского и грузино-осетинского конфликтов» исследуются особенности конфликтов в Грузии, указываются причины конфликтов в Абхазии и Южной Осетии, их результаты, рекомендуются пути их решения в рамках осуществляемых в ООН реформ.

В Заключении подводятся итоги, на основе обобщающих положений выдвигаются рекомендации по осуществлению в ООН реформ для регулирования региональных конфликтов. При этом автор приходит к выводу, что в ООН, созданной после второй мировой войны именно с целью обеспечения мира и международной безопасности, необходимы реформы по урегулированию региональных конфликтов, в том числе конфликтов в регионе Южного Кавказа.

**Ramila Bahlul Dadashova**

## Necessity of the UN reforms in the context of adjustment of regional conflicts (in the example of the Southern Caucasus)

### SUMMARY

The dissertation comprises of the list of abbreviations, introduction, 5 chapters (16 subchapters), conclusion and references.

In the introduction actuality of the topic is justified, the current research level of the problem is analyzed reference bases, the object, subject, aim, functions theoretic-methodological bases, novation, theoretical and practical benefits, approbation of the research and structure of the dissertation are introduced.

In the first chapter called "Peace and security problems in the UN and influence of veto right to the regional conflicts" the opportunities of the UN to defense peace and security, geopolitical contradictions between the UN Security Council member states with veto right, problems faced on adjustment of the regional conflicts are researched.

In the second chapter of "Proposals related to reforms of the UN" are investigated the international conditions of conducting reforms in the UN in the mechanisms of adjustment of the regional conflicts and are discussed ideas and proposals of the political figures as Boutros Boutros Ghali, Kofi Annan, Heydar Aliyev, Ilham Aliyev and others.

In the third chapter of "Perspectives of reforms in the context of international relationships" the perspectives and necessity of the UN reforms for adjustment of the regional conflicts are highlighted. The ways of increasing the role of the UN General Assembly in the settlement of regional conflicts are proposed.

In the fourth chapter of "The role of the UN in the adjustment of Armenia-Azerbaijan Nagorno Karabakh conflict" the causes and results of Armenia-Azerbaijan Nagorno Karabakh conflict, bad effect of Armenia's disinformation on adjustment process, approach of the UN member states and other international organizations, the factors giving ground to the UN to recognize Armenia as an aggressor state are researched. Reforms in the UN should also be aimed at the settlement of the Armenia-Azerbaijan Nagorno Karabakh conflict. The UN Security Council has adopted four resolutions (resolutions 822, 853, 874, 884) about the immediate

withdrawal of the occupiers from the occupied Azerbaijani land. However, these resolutions do not imply any sanctions against Armenia. Because Armenia is not defined as aggressive state in the documents.

In this chapter violation of the international humanitarian right by Armenia, globally dangerous Armenian terrorism, refugees and forced expelled inhabitants, cooperation of the UN, OSCE and conflict parties are investigated. Recommendations are given for solving the Armenian-Azerbaijan Nagorno Karabakh conflict by conducting reforms within the UN.

In the fifth chapter of "The position of the UN on adjustment of the conflicts of Abkhazia and the Southern Ossetia" the specifications of the conflicts in Georgia are investigated. Causes and results of the conflicts of Abkhazia and the Southern Ossetia are analyzed, recommendations are given for adjustment of these conflicts by conducting reforms within the UN.

In the conclusion section, conclusions are obtained from the proposals of conducting reforms for adjustment of the regional conflicts within the UN by summarizing the all researches, related proposals have been given. The author made conclusion that it is necessary to conduct reforms in the UN established to defence the international peace and security after the second world War in the context of adjusting the regional conflicts including the conflicts in the South Caucasus region.

Çapa imzalanıb: 24.01.2018.
Format: 60x84 1/16. Tiraj: 100.

**«Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzi**
Bakı, Rəsul Rza küç., 125
tel./faks 596 21 44
e-mail: mutarjim@mail.ru

**АКАДЕМИЯ ГОСУДАРСТВЕННОГО УПРАВЛЕНИЯ**
**ПРИ ПРЕЗИДЕНТЕ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

*На правах рукописи*

**РАМИЛА БАХЛУЛ гызы ДАДАШОВА**

# НЕОБХОДИМОСТЬ РЕФОРМ В ООН В КОНТЕКСТЕ РЕШЕНИЯ РЕГИОНАЛЬНЫХ КОНФЛИКТОВ (НА ПРИМЕРЕ ЮЖНОГО КАВКАЗА)

**Специальность: 5901.01 – Международные отношения**

**АВТОРЕФЕРАТ**

**диссертации на соискание ученой степени**
**доктора политических наук**

**БАКУ – 2018**